
Doğma, canım-varlığım qədər sevdiyim
Azərbaycanım mənim qibləgahımdır

100 ilin qəzeti

ŞƏRQ QAPISI

Sayı: 5 (24.440)
1 fevral 2025-ci il, şənbə

www.serqqapisi.az

Təsisçi: Naxçıvan Muxtar Respublikasının Ali Məclisi

# Qalib xalqın zəfər gəncləri

## Elə bir gənc nəsil yetişdi ki...



Səhifə ➡ 4

# AZƏRBAYCAN GƏNCLİYİ:

## vətənpərvər ruh, intellektual təfəkkür, güclü iradə



*Bu gün Azərbaycanda geniş dünyagörüşünə, intellektual təfəkkürə malik təhsilli, vətənpərvər ruhlu, ölkəmizi inamlı sabahlara daşıya biləcək müasir gənclik modeli formalaşıb. O gənclik ki təməli Ümummilli Liderimiz Heydər Əliyev tərəfindən qoyulan, mütərəqqi ideyadan yoğrulan dərin konseptual xarakterli gənclər siyasətinin nəticəsində inkişaf edib, yetişib. Bəli, "Gənclər siyasəti haqqında" Azərbaycan Respublikası Qanununun qəbulu, Gənclər və İdman Nazirliyinin yaradılması, ölkəmizdə Gənclər Gününün təsis edilməsi, eləcə də digər mühüm əhəmiyyətə malik tədbirlər Ulu Öndərin ölkəmizin aydın sabahları naminə gəncliyə yolgöstərən, mayak olan tarixi xidmətlərindəndir. Bu mütərəqqi addımların bəhrəsini hər ötən gün daha dərindən dərk edirik, görürük, yaşayırıq. "Hər bir Azərbaycan gənci hər şeydən çox, hər şeydən artıq müstəqil Azərbaycanın bu günü, gələcəyi haqqında düşünməlidir" ideyası son 30 ilə yaxın dövrdə gənclərimizin həyat tərzinə, fəaliyyət prinsipinə çevrilərək ölkəmizi böyük qələbələrə aparıb və hazırda aparmaqdadır. Dahi şəxsiyyətin 1997-ci ildə imzaladığı müvafiq Fərmana əsasən fevralın 2-si ölkəmizdə Azərbaycan Gəncləri Günü elan edilib.*

Səhifə ➡ 3

# Prezident İlham ƏLİYEV:

*"Siyasi, iqtisadi, hərbi, mənəvi istiqamətlərdə, gənc nəslin tərbiyə edilməsi istiqamətində məqsədyönlü siyasət aparılırdı və elə gənc nəsil yetişdi ki, canını fəda etdi torpaq uğrunda. Elə gənc nəsil yetişdi ki, öz qanı-canı bahasına torpağımızı düşmənin əlindən aldı. Müharibədə bütün nəsillərin nümayəndələri iştirak ediblər, qəhrəmanlıq göstəriblər. Amma hər kəs bilməlidir ki, əsas missiyanı mənim prezidentlik dövrümdə yetişən gənclər yerinə yetiriblər, 2003-cü ildə uşaq olan gənclər yerinə yetiriblər."*

# Azərbaycandan Azərbaycana maneəsiz keçid olmalıdır!



> **“Bu gün Zəngəzur dəhlizi artıq dünyada qəbul edilmiş ifadədir, qəbul edilmiş termindir.”**

Bu gün Avropa ilə Asiya arasında ticarət əlaqələrinin gücləndirilməsinə əhəmiyyətli töhfələr verən, Avrasiyanın nəqliyyat xəritəsində önəmli paya malik Azərbaycan yaratdığı reallıqlar fonunda beynəlxalq iqtisadi münasibətlərin tənzimlənməsində həlledici aktora çevrilib. Şimal-Cənub, Şərq-Qərb nəqliyyat dəhlizləri üzərində coğrafi cəhətdən əsas mərkəz rolu oynayan ölkəmizin bu üstünlüyünün strateji nöqteyi-nəzərdən möhkəmlənməsi həm də aparılan intellektual, məharətli diplomatiya, məqsədyönlü siyasət nəticəsində zamanında atılmış mütərəqqi addımların nəticəsidir...

Günümüzün gerçəkliyi göstərir ki, hər hansı ölkənin tarixən əlverişli coğrafiyada yerləşməsi, təbii ehtiyatlarının çoxluğu heç də onun iqtisadi, siyasi cəhətdən qüdrətlənəcəyi anlamına gəlmir. Dünyada varlı olub müstəmləkə şəraitində yaşayan kifayət qədər xalqlar, dövlətlər vardır. Ancaq Azərbaycan o ölkələrdəndir ki, uçuruma yuvarlanan, yoxsul respublikadan dünyanın inkişaf etmiş ölkələri ilə fəal iqtisadi münasibətlər quran, regional və beynəlxalq səviyyədə sözünü deməyə, təsirini göstərməyə müvəffəq olan, müstəqil siyasət yürüdən respublikaya çevrilməyi bacarıb. Təkcə bir fakta diqqəti çəkmək yetərlidir ki, son 30 ilə yaxındır, davam edən siyasi yolun, iqtisadi tərəqqinin Azərbaycanı necə müqayisə edilməz səviyyəyə qaldırdığı aydın olsun. Belə ki, reallaşdırılan beynəlxalq əhəmiyyətli iqtisadi, ticari əməkdaşlıqların, icra olunan layihələrin nəticəsidir ki, bu gün ölkəmizin xarici borcu ümumi daxili məhsulumuzun cəmi 7,2 faizini təşkil edir. Bəli, cəmi 7,2 faiz. Halbuki əksər inkişaf etmiş ölkələrdə bu, 100 faizdən də çoxdur. Prezident cənab İlham Əliyev də respublikamızın qısa zamanda əldə etdiyi bu böyük nailiyyəti yüksək qiymətləndirərək qazanılan uğurun analoqu olmadığını vurğulayıb: ***“Bizim valyuta ehtiyatlarımız xarici borcumuzu 14 dəfə üstələyir. Yəni əgər kimsə mənə ikinci belə ölkə, – söhbət inkişaf etmiş ölkələrdən gedir, – göstərsə, əgər kimsə bu rəqəmlər toplusunu təqdim edə bilsə, mən, əlbəttə ki, minnətdar ola bilərəm. Amma inkişaf etmiş ölkələr sırasında belə analoqlar yoxdur. Yəni bütün bunlar deməyə əsas verir ki, iqtisadiyyat dayanıqlıdır, öz resurslarına söykənir, heç bir xarici maliyyələşməyə ehtiyac yoxdur”.***

Azərbaycanın heç bir ölkədən maliyyə cəhətdən asılı olmadan əmin addımlarla irəliləməsi, təbii ki, aparılan uğurlu daxili və xarici iqtisadi siyasətin bəhrələridir ki, bu bəhrələrin təməlində əvvəldə də qeyd etdiyimiz kimi, nəqliyyat qovşağı funksiyasından düzgün, səmərəli istifadə dayanır. Son 20 il ərzində müasir avtomobil yolu, dəmir yolu infrastrukturlarının qurulması, yeni metrostansiyaların, hava və dəniz limanlarının tikilməsi, eyni zamanda Bakı-Tbilisi-Qars dəmir yolunun inşası, Ələt limanının yükdaşıma qabiliyyətinin artırılması çoxalan tələbatın qarşılanmasına mühüm töhfələr verib. Yanvarın 28-də nəqliyyat məsələlərinə həsr olunmuş müşavirədə çıxışı zamanı Prezident cənab İlham Əliyev bütün bu və digər məsələlərə toxundu, həllivacib işləri diqqətə çatdırdı, qarşıdakı hədəfləri müəyyənləşdirdi. Sitat: ***“Biz nəqliyyat məsələlərini həmişə diqqət mərkəzində saxlamışıq və son 15 il ərzində Bakı şəhərində bir çox böyük layihələr icra edildi, yeni metro stansiyaları istifadəyə verildi, yol qovşaqları, tunellər, körpülər inşa edildi, yeni yollar salındı. Əgər biz bu işləri görməsəydik, bu gün, ümumiyyətlə, Bakı şəhərində nəqliyyat iflic vəziyyətinə düşərdi. Amma yenə də görürük ki, növbəti böyük bir proqramın qəbul olunmasında böyük fayda olacaq. Bu məqsədlə bir müddət bundan əvvəl Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinə Dövlət Proqramının hazırlanmasına dair müvafiq göstərişlər vermişəm və bir neçə ay ərzində bu proqram üzərində iş aparılıb”.***



Müşavirədə diqqətə çəkilən mühüm nəqliyyat məsələlərindən biri də Vətən müharibəsindən sonra regionda yaranan yeni reallıqlar timsalında Zəngəzur dəhlizinin yaradılması və Naxçıvan Muxtar Respublikasının ölkəmizin digər ərazisi ilə əlaqəsinin təmin edilməsidir. Bu xüsusda onu təəssüf hissi ilə qeyd etməliyik ki, işğalçı Ermənistan 44 günlük savaşın sonunda biabırçı məğlubiyyəti rəsmiləşdirən 10 noyabr üçtərəfli bəyanatla üzərinə götürdüyü öhdəlikləri yerinə yetirməkdən boyun qaçırır. Beynəlxalq arenada özünə yer edə bilməyib, hey aşağı-yuxarı vurnuxan, yeri gələndə Rusiyanın əlinə-ayağına düşən, yalvarışlar edən hayların xunta rejimi Şimaldan əvvəlki nəvazişi ala bilmədiyində dərhal Qərbə meyillənməsi ilə siyasət meydanının “sürüşkən fiquru” adını gün ötdükcə daha bariz şəkildə doğruldur. Görünən odur ki, Fransanın çirkin siyasi oyununa alət olmağı özünə fəxarət hesab edən, düşdüyü rəzil durumdan çıxış yolunu uzaq sahillərdə axtaran qarşı tərəf nə tarixi gerçəklikdən, nə də son 5 ildə baş verənlərdən dərs çıxarmaq niyyətindədir.

Müxtəlif bəhanələrlə vaxt uzatmaq, bölgədə münaqişə yaratmaq istəyi bu bədnam qonşumuzu günü-gündən daha da dalana dirəyir və Azərbaycan olmadan heç bir təşəbbüsün nəticə verməyəcəyi həqiqətini ortaya çıxarır. Qalib ölkə başçısının da dediyi kimi: ***“Ermənistan tərəfi dörd ildən çoxdur ki, bu məsələ ilə bağlı qeyri-konstruktiv mövqe sərgiləyir, faktiki olaraq 10 noyabr kapitulyasiyasından sonra üzərinə götürdüyü öhdəlikləri yerinə yetirmir. Orada açıq-aydın göstərilirdi ki, Azərbaycanın əsas hissəsi ilə onun ayrılmaz hissəsi olan Naxçıvan Muxtar Respublikası arasında nəqliyyat bağlantısı olmalıdır. Ermənistan isə buna əməl etmir, müxtəlif bəhanələr gətirərək, müxtəlif qeyri-real və cəfəng layihələri ortaya ataraq, sadəcə olaraq, beynəlxalq ictimaiyyətin fikrini çaşdırmaq istəyir, manipulyasiyalarla məşğuldur”.*** Bəli, onun-bunun fikri ilə oturub-duran, özgə kölgəsində daldalanan, məğlub Paşinyandan fərqli olaraq sözü, imzası bir olan qalib Prezident cənab İlham Əliyev 2003-cü ildən bəri hər zaman, o cümlədən də 2020-ci ildən sonra irəli sürdüyü ideyanın, təşəbbüsün arxasında sona qədər dayanıb. Zəngəzur dəhlizi məsələsində də prinsip dəyişilməzdir. Azərbaycanın əsas hissəsi ilə Naxçıvanın əlaqəsi olmalıdır və olacaqdır. Bu məsələdə heç bir qəribəlik yoxdur, dövlətimizin qoyduğu şərt tarixi reallığa, tarixi həqiqətə, beynəlxalq hüquqa söykənir.

Qərbi Zəngəzur Azərbaycan torpağı olub, sovet hakimiyyətinin xalqımıza qarşı cinayətinin nəticəsi kimi 1920-ci ilin noyabrında heç bir hüquqa, ədalətə sığmayan şəkildə alınaraq Ermənistana hədiyyə edilib. XX əsrdə, ondan qabaq xalqımıza qarşı dəfələrlə soyqırımlar, faciələr törədən qansız toplumun başıpozuq nümayəndələrindən fərqli olaraq respublikamızın son 30 ilə yaxın davam edən siyasətinə hansısa ədalətsiz qərar çıxarmaq, günahsızın canına qıymaq deyilən bir anlayış yaddır. Bunun ən gözəl nümunəsini 2023-cü il sentyabrın 19-20-də həyata keçirilən lokal xarakterli antiterror tədbirləri və bu əməliyyatın nəticələrinə uyğun keçmiş qondarma rejimin “başbilən”lərinin hazırda davam edən məhkəmə prosesi bir daha ortaya qoyur. Ölkə Prezidentinin nəqliyyat müşavirəsində də qəti şəkildə qeyd etdiyi kimi, bizim Ermənistana ərazi iddiamız yoxdur. Ancaq Ermənistan öz üzərinə götürdüyü öhdəlikləri yerinə yetirərək Azərbaycandan Azərbaycana maneəsiz keçid verməlidir...

Ümumiyyətlə, ölkə başçımızın Azərbaycan-Ermənistan münasibətləri ilə bağlı hər zaman bütün beynəlxalq arenalardan, siyasi platformalardan səsləndirdiyi fikirlər, irəli sürdüyü təşəbbüslər bir amala xidmət edir: tarixi reallıq, beynəlxalq hüquq və ədalətə. Son 5 ilə yaxın zaman çərçivəsində yaranan yeni gerçəklik Prezident cənab İlham Əliyevin bu münasibətlər zəminindəki ideyasının, mövqeyinin alternativi olmadığını sübut etdi və əminik ki, yaxın gələcəkdə Naxçıvanın ölkəmizin əsas hissəsinə birləşməsi ilə tarixi ədalət öz yerini tapacaq... Əks təqdirdə, Ermənistanın irəli sürdüyü heç bir təşəbbüsün, heç bir layihənin rellaşması Azərbaycanın razılığı olmadan mümkün deyil, əsassızdır, nəticəsizdir. ***“Siz də eşitmisiniz, dırnaqarası “Sülh kəsişməsi” layihəsini ortalığa atıb və indi dünyada bir ölkə qalmayıb ki, o ölkəyə bu layihə təqdim edilməsin. Halbuki bu dırnaqarası layihənin Azərbaycansız iki qəpiklik də qiyməti yoxdur və biz bunu dəfələrlə Ermənistan tərəfinə müxtəlif kanallar vasitəsilə çatdırmışıq. Əgər siz bu layihəni, doğrudan da, həyata keçirmək istəyirsinizsə, ilk növbədə, Azərbaycana müraciət etməlisiniz. Çünki bizsiz bu, sadəcə olaraq, kağız parçasıdır, bizim şərtlərimiz isə ədalətlidir, beynəlxalq hüquqa əsaslanır və Ermənistanın özünün götürdüyü öhdəliklərə əsaslanır. Ermənistan rəhbərliyinə bir daha məsləhət görərdim ki, 10 noyabr kapitulyasiya aktını diqqətlə oxusun və orada xüsusilə dediyim o həndə diqqət yetirsin. Yenə də deyirəm, onların dırnaqarası layihəsi Azərbaycansız tamamilə əhəmiyyətsizdir”*** sitatın sonu!

**Nail ƏSGƏROV**

# AZƏRBAYCAN GƏNCLİYİ:

## vətənpərvər ruh, intellektual təfəkkür, güclü iradə



(əvvəli 1-ci səhifədə)

### Dövlət gənclər siyasətinin əsas xətti təhsildən keçir

Ümummilli Liderimiz Heydər Əliyevin siyasi varisi, ölkə başçısı cənab İlham Əliyev tərəfindən 2003-cü ildən bəri uğurla davam etdirilən dövlət gənclər siyasəti Azərbaycan gəncliyinin yeni dövrün tələbləri səviyyəsində hərtərəfli inkişafına güclü təkan verib. Gənclər Fondunun yaradılması, gənclərin bacarıq, təşəbbüs və yaradıcılıqlarının üzə çıxarılması, onların dövlət tərəfindən dəstəklənməsi, gənclər üçün Prezident mükafatının təsis olunması, ölkə gənclərinin beynəlxalq arenada təmsilçiliyinin yüksəlməsi, respublikanın əksər rayon və şəhərlərində gənclər mərkəzlərinin, gənclər evlərinin tikilməsi gənclər siyasətinin səmərəliliyini daha da artıran əhəmiyyətli amillərdir. Bu gün xaricdə diaspor təşkilatlarında, konsulluqlarda, səfirliklərdə, dövlət idarəçiliyində, təhsil, səhiyyə, mədəniyyət, ümumiyyətlə, bütün sahələrdə gənclik həvəsi, gənclərin səsi duyulur. Bu baxımdan 2005-ci ildən etibarən 2005-2009, 2011-2015 və 2017-2021-ci illəri əhatə edən Azərbaycan Gəncliyi Dövlət proqramlarının icrasına diqqəti çəkmək olar. Proqramlardan irəli gələn vəzifələrə uyğun dövlətin gənclərlə bağlı siyasətində əsas xətt məhz təhsil üzərindən inkişaf etdirilir, yəni məqsəd dünyada gedən qlobal yeniliklərlə, dövri proseslərlə ayaqlaşmağı bacaran savadlı nəsil yetişdirməkdir. Ölkəmizin bütün bölgələrində mərkəzdən tutmuş ta ki dağ kəndlərinədək müasir təhsil infrastrukturunun qurulması, məktəblərin ən yeni tədris avadanlıqları ilə təchizi, yeni təlim metodlarının tətbiqi də məhz bu məqsədə xidmət edir. Hər il ölkəmizin ali təhsil ocaqlarında yüksələn qəbul göstəriciləri də aparılan uğurlu siyasətin bəhrəsidir. Ölkə üzrə 2023-2024-cü tədris ilində bakalavriat pilləsinə 54 min 275, magistratura pilləsinə 13 min 567 nəfər qəbul olunub. Müqayisə üçün bildirək ki, 2022-2023-cü tədris ilində bakalavriat pilləsinə 49 085, magistratura pilləsinə 11 541 nəfər qəbul edilmişdi. Göründüyü kimi, cəmi bir tədris ilində kifayət qədər artım müşahidə olunur. Digər prioritet hədəf isə xarici ölkələrin tanınmış ali təhsil ocaqlarında təhsilin təşviqidir ki, bu istiqamətdə də ötən illərdə gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil almalarına dair Dövlət proqramları icra edilib. Prezident cənab İlham Əliyevin 2024-cü il 12 avqust tarixli Sərəncamı ilə həmin proqramın müddəti 2028-ci ilədək uzadılıb və qəbul üzrə kvota sayı 500 nəfər müəyyən olunub. 2025-ci ildən başlayaraq kvotanın 25 faizindən çox olmayan hissəsi bakalavriat pilləsini və 20 faizindən çox olmayan hissəsi doktorantura pilləsini əhatə edəcək. 2024-2025-ci tədris ilində Dövlət Proqramı çərçivəsində bakalavriat pilləsi üzrə 125, magistratura pilləsi üzrə isə 375 nəfər olmaqla, ümumilikdə, 500 nəfər təqaüdçü adını qazanıb. Ümumilikdə, proqram çərçivəsində dünyanın 21 ölkəsinə aid 151 ali təhsil müəssisəsində 1252 tələbə təhsil almaq hüququ qazanıb. Bunlardan dünyanın 14 ölkəsinə aid 64 nüfuzlu ali təhsil müəssisəsində təhsilini başa vuran 186 nəfər Dövlət Proqramı çərçivəsində məzun olub.

Bu gün ölkəmizin hər yerində olduğu kimi, işğaldan azad edilən tarixi torpaqlarımızda da müasirtipli orta məktəblər tikilib istifadəyə verilir. 2024-2025-ci tədris ilində 1104 tələbənin ali təhsil aldığı Qarabağ Universitetinin açılışı həm də bölgədə mövcud tarixi təhsil ənənələrinin bərpasına xidmət edir. Təqvimi yarım əsr geriyə çəkməyimiz yetərlidir ki, bu ənənənin necə yarandığını, xalqımızın həyatında böyük önəmə malik hansı tarixi hadisə ilə üst-üstə düşdüyünü öyrənək. Məlum olduğu üzrə bu təhsil ocağının yaranması ötən əsrin 60-70-ci illərinə, yəni Ümummilli Liderimiz Heydər Əliyevin ölkəmizə birinci rəhbərliyi dövrünə təsadüf edir. Daha dəqiq desək, təhsil müəssisəsi elə 1969-cu ildə Ulu Öndər Azərbaycanda birinci dəfə siyasi hakimiyyətə gəldiyi zaman Azərbaycan Pedaqoji İnstitutunun filialı kimi qurulub, 1973-cü ildən 1988-ci ilədək ali təhsil müəssisəsi kimi fəaliyyət göstərib, ərazilərimizin işğalı dövründə isə, ümumiyyətlə, fəaliyyətini dayandırıb. Və təqdirəlayiq haldır ki, artıq Qarabağ Universiteti adına layiq şəkildə, mövcud tarixi yerində – Xankəndidə fəaliyyət göstərir.

### Vətənpərvərlik hisslərinin gənc nəslə aşılanmasında idman amili mühümdür

Dövlətimizin gənclər siyasətində ikinci prioriteti isə sağlam təfəkkür, əqidə ilə yanaşı, fiziki cəhətdən də sağlam nəslin yetişdirilməsi, formalaşdırılmasıdır. Bu istiqamətdə həyata keçirilən tədbirlərin nəticəsidir ki, hazırda ölkəmizin ayrı-ayrı bölgələrində, ümumilikdə, 44 Olimpiya İdman Kompleksi, o cümlədən müxtəlif bölgələrdə, Bakıda, Qarabağda, Naxçıvanda ən müasir idman infrastrukturu qurularaq gənclərin istifadəsinə verilib. Azərbaycanın Avropa Oyunlarını, İslam Həmrəyliyi Oyunlarını yüksək səviyyədə təşkil etməsi gənclər idman siyasətinin uğur göstəricilərədir. Təqdirəlayiq haldır ki, idmançılarımız yaradılan şəraitdən düzgün istifadə edərək beynəlxalq arenalarda ölkə idmanının şərəfini layiqincə qoruyur, üçrəngli bayrağımızı zirvələrə qaldırır, Dövlət Himnimizi səsləndirirlər. Bu baxımdan 2024-cü il də Azərbaycan idmanı üçün uğurlu olub, idmançılarımız beynəlxalq yarışlarda ölkəmizi ləyaqətlə təmsil edib, 1700-ə yaxın medal qazanılıb. Sayca 33-cü dəfə keçirilən, 16 gündə 329 dəst medalın öz sahibini tapdığı "Paris-2024" Yay Olimpiya Oyunlarını müstəqilliyinin bərpasının 33-cü ildönümündə respublikamız üçün ən uğurlu idman yarışlarından biri hesab etmək olar. 91 ölkənin idmançılarının fəxri kürsüyə çıxdığı olimpiadada Azərbaycan 2 qızıl, 2 gümüş və 3 bürünc medal qazanmaqla sıralamada Qazaxıstan, Polşa, Avstriya kimi iddialı komandaları arxada buraxıb 30-cu olmağı bacardı. Olimpiada bir daha göstərdi ki, Azərbaycanda idman cəmiyyətimizin ayrılmaz hissəsidir. Xüsusilə gənc nəslin yetişdirilməsi, gənclərə vətənpərvərlik hisslərinin aşılanması üçün idman amilinə böyük önəm verilir. Nəzərə alsaq ki, ötənilki Yay Olimpiya Oyunlarında ilk dəfə Azərbaycan qalib ölkə, idmançılarımız isə müzəffər xalqın nümayəndələri olaraq iştirak edirdi o zaman bu nailiyyəti müharibədən sonrakı dönəmdə milli ruhun daha da yüksəlməsi kimi dəyərləndirə bilərik. Azərbaycan Respublikasının Prezidenti, Milli Olimpiya Komitəsinin Prezidenti cənab İlham Əliyev əvvəlki illərdə olduğu kimi, bu dəfə də böyük nailiyyətlərlə Vətənə dönən idmançılarımızı orden və medallarla təltif etdi, yüksək məbləğdə pul mükafatları ilə mükafatlandırdı. Dövlət başçısı 2024-cü ilin idman yekunlarına həsr olunan mərasimdə ölkəmizin olimpiadada qazandığı tarixi nailliyyəti yüksək qiymətləndirdi: ***"Əlbəttə ki, ilin ən böyük yarışı Yay Olimpiya Oyunları idi və burada da biz tarixi nəticə əldə etmişik. Azərbaycan müstəqil ölkə kimi 1996-cı ildən Olimpiya Oyunlarında iştirak edir və bu dəfə ən yüksək yerə layiq görülmüşdür, komanda hesabında Azərbaycan 30-cu yerdə qərarlaşmışdır. Bu ən yüksək nəticədir. Bütövlükdə, iki yüzdən çox milli komanda Olimpiya Oyunlarında iştirak edirdi. Onların arasında 30-cu olmaq çox böyük nailiyyətdir".***

### "Elə gənc nəsil yetişdi ki, canını fəda etdi torpaq uğrunda"

Fiziki, intellektual cəhətdən sağlam yetişən gəncliyin, təbii ki, vətənpərvərlik tərbiyəsi, milli ruhu da yüksək olur. Bu baxımdan ölkəmizdə illərdir, həyata keçirilən dövlət gənclər siyasətinin ən bariz bəhrəsini, nümunəsini, milli ruhun təntənəsini 2020-ci ilin 44 günündə gördük, yaşadıq. Vətənə məhəbbətlə böyüyən Vətən sevdalı Azərbaycan gəncləri sentyabrın 27-dən noyabrın 10-dək bircə gün də geriyə addım atmadı, yalnız irəli addımladılar. Füzulidən yarılmaz istehkamları yarıb, keçilməz sədləri keçərək müqəddəs şəhərimiz Şuşada missiyalarını şərəflə tamamladılar, müasir hərb tariximizin zəfər salnaməsini yazdılar. Ölkə başçısı da çıxışlarında aparılan dövlət gənclər siyasətinin, təlim-tərbiyə prosesinin müharibənin taleyində böyük rol oynadığını vurğulayıb: ***"Siyasi, iqtisadi, hərbi, mənəvi istiqamətlərdə, gənc nəslin tərbiyə edilməsi istiqamətində məqsədyönlü siyasət aparılırdı və elə gənc nəsil yetişdi ki, canını fəda etdi torpaq uğrunda. Elə gənc nəsil yetişdi ki, öz qanı-canı bahasına torpağımızı düşmənin əlindən aldı. Müharibədə bütün nəsillərin nümayəndələri iştirak edirlər, qəhrəmanlıq göstəriblər. Amma hər kəs bilməlidir ki, əsas missiyanı mənim prezidentlik dövrümdə yetişən gənclər yerinə yetiriblər, 2003-cü ildə uşaq olan gənclər yerinə yetiriblər".***
Bəli, Ulu Öndər siyasətini uğurla davam etdirən cənab İlham Əliyevin rəhbərliyi dövründə formalaşan, düzgün təlim-tərbiyə alan gənclər tarix yazdılar. Xalqımızın yaddaşına əbədi həkk olunan qızıl tarix.

Bəli, müasir Azərbaycan gəncliyi 2020-ci il sentyabrın 27-də Ali Baş Komandanın əmrinə müntəzir doğma ata-baba torpaqlarını qaytarmaq üçün irəli atılan oğulların nərəsində, keçilməz sədləri keçən, yarılmaz cəbhələri yaran iradədə, düşməni lərzəyə salan "dəmir yumruq"dadır. Təkbaşına onlarla ermənini məhv edən Mübarizin cəsarətində, dumanlı dağların başında duran Xudayarın döyüş yoldaşlarını irəli səsləyən Vətən həsrətli səsində, tək əliylə düşmənin canını boğazından çıxaran Cəbrayılın intiqamlı baxışlarında, yüzlərlə igidimizin 44 gündə al qanları ilə yazdıqları qəhrəmanlıq dastanındadır. 23 saata qondarma rejimin belini qıran qətiyyətdə, şücaətdə, mülki şəxs canından olmasın deyə göstərilən nəzakətdə, insanlıqda, vicdanda, ləyaqətdədir Azərbaycan gəncliyi. Beynəlxalq yarışlarda ölkəmizin bayrağını dalğalandıran, himnimizi səsləndirən Hidayət, Zelim kimi gənclərin əyilməz qəddində, şux qamətində, kimsəsizə kimsə olmağı, mənəvi dəyərləri qorumağı, təbiətə qayğı ilə yanaşmağı aşılayan könüllülük hərəkatında, olimpiada qalibi olmaq, ali məktəb tələbəsi adını qazanmaq həvəsində, Xankəndidəki Qarabağ Universitetində, Ali Baş Komandanı qarşılamaq üçün universitetin yataqxanasının üçrəngli bayraqla bəzənən eyvanından duyulan alqışda, rəğbətdədir. Səndədir, məndədir, hər birimizdədir gənclik istəyi, gənclik duyğusu. Gününüz mübarək, güclü Azərbaycanın güclü gəncləri...

Nail ƏSGƏROV



# Qalib xalqın zəfər gəncləri

## Elə bir gənc nəsil yetişdi ki...

Odu əli ilə götürüb sinəsinə basıb söndürən, düşmən gülləsindən qorxmayıb ona kürəyini çevirməyən, canını Vətən torpağına qurban verib üçrəngli bayrağı bəy köynəyi bilən bir gənc nəsil. Bəli, keçmişini unutmayan, bu günü ilə qürur duyan, gələcəyə böyük inamla baxan xalqlar daim tarixin sərt sınaqlarından üzüağ çıxır.

Biz də xalq olaraq əslimizi tanıyandan igid və qəhrəman bir millətin davamçıları olmaqla fəxr etmişik. "Kitabi-Dədə Qorqud"dan başlayan qəhrəmanlıqla dolu tariximizdə gənclərin at belində, əlində qılınc torpağı necə qoruduğunu oxumuşuq. Gün gəlib düşmən önündə əliyalın dayanan Azərbaycan gənci can verib, bir ovuc torpaq verməyib yada. Gün olub dünyanı lərzəyə gətirən bir dövlətin əsarət zəncirini yalın əlləri ilə boynundan çıxarıb, düşmən tankının altında sümükləri xıncım-xıncım olub, öz qanı-canı ilə Azərbaycanı əsarətdən qurtarıb. Soyuq səngərlərdə ürəyindəki Vətən sevgisinin alovu ilə isinib, günlərlə ac-susuz qalıb yurdunu qoruyub.

Əlindəki üçrəngli bayrağı düşmənə təslim etməyərək günlərlə təkbaşına döyüşən Natiqləri, onlarla ermənini məhv edən igid Mübarizləri, canı bahasına düşmənə aman verməyən Adil, Camal, Murad kimi gəncləri ilə daim qürur duyub bu xalq.

***"Gözəl gənc nəsil yetişdirdik – vətənpərvər, tərbiyəli, milli ruhda tərbiyə almış gənc nəsil. Həmin bu gənclər bizim torpaqlarımızı azad ediblər".***

Dövlət başçısının fəxrlə, qürurla bəhs etdiyi həmin gənc nəsil Vətən sevgisini bütün xoşbəxtliklərdən üstün tutub 2020-ci ilin soyuq bir payız günü yaz Günəşi ilə aydınlatdı Azərbaycan səmasını. Bunlar həmin gənclər idi – düşmən mərmisinin səsi ilə böyüyən oğullar. Azərbaycanın



ən çətin günlərində dünyaya gəlib, yetişən igidlər. Gözlərini açıb Qarabağı əsir görənlər, ürəyində düşmənə nifrət hissi ilə böyüyənlər. 44 günlük Vətən müharibəsini Azərbaycan tarixinin şanlı səhifələrinə çevirib alnımızı açıq edənlər.

Cəbhədə, döyüş meydanlarında şücaət, cəsurluq, əzmkarlıq göstərərək müharibənin ilk dəqiqələrindən düşmənin canına qorxu salanlar. Torpağı azad edib sönən çırağımızı alovlandıranlar. Ucsuz-bucaqsız çölləri qarış-qarış azad edib cənnətə çevirənlər. Azad Azərbaycanın cəsur gəncləri. 1990-cı illərdə Ulu Öndərin çətinliklərdən xilas etdiyi uşaqlar. Dahi rəhbərinin çəkdiyi yolla irəlilədikcə böyüyüb gənc oldu həmin körpələr. Onun adını daşıyan hərbi məktəbi bitirib Vətən üçün sipər oldu kimisi, kimisi müəllim olub tariximizi öyrətdi uşaqlara, onlara Vətənin xilasedicisindən danışdı. Kimisi həkim oldu, kimisi mühəndis. Həmin körpələr böyüyüb vaxtı gələndə dahi rəhbərinin davamçısının ətrafında birləşib bir yumruq oldu. Vaxtilə Naxçıvanda düyünlənən yumruq bərkidi, dəmirə döndü. İllər öncə ilan kimi qoynumuza girib torpağımızı işğal edən düşmənin başına elə bir zərbə vurdu ki, düşmən hələ də özünə gələ bilmir...

Bəli, bunlar onlar idi – Ulu Öndərin nəvələri, 1990-cı illərin çətin günlərində və sonrakı illərdə azad Azərbaycanda dünyaya gələn körpələr. Düşmən mərmisinə tuş gəlməsin deyə anasının günlərlə soyuq zirzəmidə saxladığı, "Gedib düşməni qovacağam, çıxarın məni zirzəmidən", – deyən Vüsallar, anasının güclə tapdığı undan neft pilətəsində bişirdiyi halal çörəklə böyüyən qəlbi Vətən sevdalı Ruzilər, İlkinlər... Evinin tək çırağı olsa da, əyninə hərbi forma geyinib səngərə atılan Eminlər, Raqiblər, Həsənlər...

***"Çox şadam, fəxr edirəm ki, Vətən uğrunda, torpaq uğrunda qabağa gedənlərin əksəriyyəti gənclər idi. Bu hər birimiz üçün qürur mənbəyidir. Çünki elə bir gənc nəsil yetişdi ki, hətta Qarabağı görməyən, o acı tarixi görməyən gənclər Qarabağ uğrunda, Vətən uğrunda, milli ləyaqət uğrunda ölümə gedirdilər və şəhid oldular, qazi oldular".***

Ölkə başçısının fəxr etdiyi gənclər onlar idi: Ulu Öndərin nəvələri, Müzəffər Ali Baş Komandanın yetişdirdiyi gənclər... Vətəni bütövləşdirənlər, bayrağımızı Şuşada dalğalandıranlar, Qarabağın xilaskarları... Böyüyün Onun ən böyük arzusunu yerinə yetirənlər. Azərbaycanın gözəl gələcəyinə, gəncinə inanan dahinin inamını doğruldub Şuşaya, Xankəndiyə, yaralı Xocalıya azadlıq gətirən igidlər. Bəli, elə bir gənc nəsil yetişdi ki, dünyaya "Mən varam, var olacağam", – dedi. Azərbaycan daim var olacaq, çünki öz xəyallarını Vətənə qurban edən, Vətən üçün can verən gəncləri var bu dövlətin.

Ramiyə ƏKBƏROVA



## Ali Məclisin Humanitar siyasət komitəsinin iclası keçirilib



Yanvarın 30-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Humanitar siyasət komitəsinin iclası keçirilib.

Komitə sədri Ülkər Bayramova iclasda Ali Məclisin 2024-cü ilin payız sessiyası dövründə rəhbərlik etdiyi komitədə görülən işlər barədə hesabatla çıxış edib. Eyni zamanda yaz sessiyasında görüləcək işlər müzakirə olunub, Ali Məclisin qanunvericilik işləri planına dair təkliflər irəli sürülüb.

Sonda məsələ ilə əlaqədar komitə üzvlərinin çıxışları dinlənilib.

## Ali Məclisin Sosial siyasət komitəsinin iclası keçirilib



Yanvarın 31-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sosial siyasət komitəsinin iclası keçirilib.

Komitə sədri Nuray Əliyeva iclasda Ali Məclisin 2024-cü ilin payız sessiyası dövründə rəhbərlik etdiyi komitədə görülən işlər barədə hesabatla çıxış edib. Eyni zamanda yaz sessiyasında görüləcək işlər müzakirə olunub, Ali Məclisin qanunvericilik işləri planına dair təkliflər irəli sürülüb.

Sonda məsələ ilə əlaqədar komitə üzvlərinin çıxışları dinlənilib.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Ali Məclisin mətbuat xidmətinin məlumatı

Fevralın 3-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin yaz sessiyasının ilk plenar iclası keçiriləcək.

Sessiyanın ilk plenar iclasında Ali Məclisin yaz sessiyası üçün qanunvericilik işləri planının təsdiq edilməsi, Hesablayıcı və İntizam komissiyalarının yenidən yaradılması nəzərdə tutulur.

## Naxçıvan Muxtar Respublikasında aqrar sahə üzrə veriləcək subsidiya əmsalları ilə bağlı yeni qərarlar qəbul edilib



Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin mətbuat xidmətinin məlumatına əsasən 2025-ci ildə Naxçıvan iqtisadi rayonunda əkin əmsalları və əkin subsidiyasının məbləği 2024-cü il sentyabrın 1-dən 2025-ci il mayın 31-dək salınan:

• üzüm bağları üçün 8000 manatdan 14700 manata;

intensiv meyvə bağları üçün isə qeyd edilən tarix üzrə salınan:

• fındıq bağları üçün 4400 manatdan 8050 manata;

• şaftalı (nektarin) və ərik bağları üçün 4000 manatdan 24500 manata;

• püstə bağları üçün 4500 manatdan 6300 manata;

• armud bağları üçün 8000 manatdan 25200 manata;

• alma bağları üçün 11000 manatdan 32200 manata;

• xurma (xirnik) bağları üçün 3000 manatdan 7000 manata;

• badam bağları üçün 3500 manatdan 7350 manata;

• qoz bağları üçün 3300 manatdan 5600 manata artırılmışdır.

Naxçıvan Muxtar Respublikasında aqrar sahə üzrə subsidiyaların verilməsi Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 27 iyun tarixli Fərmanı ilə təsdiq edilmiş “Kənd təsərrüfatı məhsulları istehsalının subsidiyalaşdırılması Qaydası”na müvafiq olaraq Aqrar Subsidiya Şurası tərəfindən müəyyən edilən əmsallara uyğun olaraq ödəniləcəkdir.

Məlumat üçün bildirək ki, Aqrar Subsidiya Şurasının qərarına əsasən 2024-cü il sentyabrın 1-dən 2025-ci il mayın 31-dək meyvə bağları üçün bir sıra şərtlər müəyyən edilmişdir:

• Naxçıvan iqtisadi rayonunda dəniz səviyyəsindən 800 metrdən yuxarı olmayan ərazilərdə yerləşən, hər hektarından azı 2 nöqtədə (nümunə koordinatlar qeyd edilməklə) 2 qatdan (0-30 sm, 30-60 sm) götürülmüş torpaq nümunələrində torpağın elektrik keçiriciliyi göstəricisi 2,0 dS/m-dən az olan torpaqlarda çəyirdəksiz süfrə üzüm sortlarından olan tinglərin bir torpaq sahəsində (parseldə) və ya bir neçə torpaq sahəsindən (parseldən) ibarət vahid ərazidə əkilən, sahəsi azı 2 hektar olan və 1 hektara minimum 1600 ədəd sertifikatlı (calaqaltı və calaqüstü sortunu təsdiq edən) tingin əkildiyi, bağın salındığı 1-ci ildə “V” və ya çardaq şəkilli dirək sistemi (şpaler) qurulmuş, “Aqrar sığorta haqqında” Azərbaycan Respublikasının Qanununa müvafiq olaraq sığortalanan üzüm bağlarının hər hektarına görə 14700 manat;

• Naxçıvan iqtisadi rayonunda dəniz səviyyəsindən 800 metrdən yuxarı olmayan ərazilərdə yerləşən hər hektarından azı 2 nöqtədə (nümunə koordinatlar qeyd edilməklə) 2 qatdan (0-30 sm, 30-60 sm) götürülmüş torpaq nümunələrində elektrik keçiriciliyi göstəricisi 2,0 dS/m-dən az olan bir torpaq sahəsində (parseldə) və ya bir neçə torpaq sahəsindən (parseldən) ibarət vahid ərazidə salınan, cəmi sahəsi ən azı 3 hektar olan və 1 hektara minimum 2500 ədəd sertifikatlı (calaqaltı və calaqüstü sortunu təsdiq edən) tingin əkildiyi, bağın salındığı 1-ci ildə dirək sistemi (şpaler) qurulmuş hiper-intensiv şaftalı (nektarin) bağlarının hər hektarına görə 24500 manat əkin subsidiyası veriləcəkdir.

• Naxçıvan iqtisadi rayonunda dəniz səviyyəsindən 900 metrdən yuxarı olmayan ərazilərdə yerləşən hər hektarından azı 2 nöqtədə (nümunə koordinatlar qeyd edilməklə) 2 qatdan (0-30 sm, 30-60 sm) götürülmüş torpaq nümunələrində elektrik keçiriciliyi göstəricisi 2,0 dS/m-dən az olan bir torpaq sahəsində (parseldə) və ya bir neçə torpaq sahəsindən (parseldən) ibarət vahid ərazidə salınan, cəmi sahəsi ən azı 3 hektar olan və 1 hektara minimum 2500 ədəd sertifikatlı (calaqaltı və calaqüstü sortunu təsdiq edən) tingin əkildiyi, bağın salındığı 1-ci ildə dirək sistemi (şpaler) qurulmuş hiper-intensiv ərik bağlarının hər hektarına görə 24500 manat əkin subsidiyası veriləcəkdir.

• Naxçıvan iqtisadi rayonunda dəniz səviyyəsindən 800 metrdən yuxarı olmayan ərazilərdə yerləşən hər hektarından azı 2 nöqtədə (nümunə koordinatlar qeyd edilməklə) 2 qatdan (0-30 sm, 30-60 sm) götürülmüş torpaq nümunələrində torpağın elektrik keçiriciliyi göstəricisi 3,0 dS/m-dən az olan torpaqlarda 1 hektara minimum 400 ədəd tingin əkildiyi intensiv püstə bağlarının hər hektarına görə 6300 manat əkin subsidiyası veriləcəkdir.

• Naxçıvan iqtisadi rayonunda dəniz səviyyəsindən 900 metrdən yuxarı olmayan ərazilərdə yerləşən bir torpaq sahəsində (parseldə) və ya bir neçə torpaq sahəsindən (parseldən) ibarət vahid ərazidə dirək sistemi (şpaler) ilə salınan, sahəsi azı 3 hektar olan və 1 hektara minimum 2770 ədəd sertifikatlı tingin əkildiyi hiperintensiv armud bağlarının hər hektarına görə 25200 manat əkin subsidiyası veriləcəkdir.

• Naxçıvan iqtisadi rayonunda dəniz səviyyəsindən 800-1100 metr aralığında hündürlükdəki ərazilərdə yerləşən bir torpaq sahəsində (parseldə) və ya bir neçə torpaq sahəsindən (parseldən) ibarət vahid ərazidə dirək sistemi (şpaler) ilə salınan, sahəsi azı 2 hektar olan və 1 hektara minimum 4000 ədəd sertifikatlı tingin əkildiyi hiper-intensiv alma bağlarının hər hektarına görə 32200 manat əkin subsidiyası veriləcəkdir.

• Naxçıvan iqtisadi rayonunda dəniz səviyyəsindən 800 metrdən yuxarı olmayan ərazilərdə yerləşən hər hektarından azı 2 nöqtədə (nümunə koordinatlar qeyd edilməklə) 2 qatdan (0-30 sm, 30-60 sm) götürülmüş torpaq nümunələrində elektrik keçiriciliyi göstəricisi 2,0 dS/m-dən az olan bir torpaq sahəsində (parseldə) və ya bir neçə torpaq sahəsindən (parseldən) ibarət vahid ərazidə salınan, sahəsi azı 3 hektar olan və 1 hektara minimum 650 ədəd sertifikatlı tingin əkildiyi intensiv xurma (xirnik) bağlarının hər hektarına görə 7000 manat əkin subsidiyası veriləcəkdir.

• Naxçıvan iqtisadi rayonunda dəniz səviyyəsindən 800 metrdən yuxarı olmayan ərazilərdə yerləşən hər hektarından azı 2 nöqtədə (nümunə koordinatlar qeyd edilməklə) 2 qatdan (0-30 sm, 30-60 sm) götürülmüş torpaq nümunələrində torpağın elektrik keçiriciliyi göstəricisi 2,0 dS/m-dən az olan bir torpaq sahəsində (parseldə) və ya bir neçə torpaq sahəsindən (parseldən) ibarət vahid ərazidə salınan, sahəsi azı 1 hektar olan və 1 hektara minimum 650 ədəd sertifikatlı tingin əkildiyi intensiv badam bağlarının hər hektarına görə 7350 manat əkin subsidiyası veriləcəkdir.

• Naxçıvan iqtisadi rayonunda dəniz səviyyəsindən 700-1100 metr aralığında hündürlükdəki ərazilərdə yerləşən bir torpaq sahəsində (parseldə) və ya bir neçə torpaq sahəsindən (parseldən) ibarət vahid ərazidə salınan, sahəsi ən azı 5 hektar olan və 1 hektara minimum 350 ədəd sertifikatlı tingin əkildiyi intensiv qoz bağlarının hər hektarına görə 5600 manat əkin subsidiyası veriləcəkdir.

• Naxçıvan iqtisadi rayonunda dəniz səviyyəsindən 700-1100 metr aralığında hündürlükdəki ərazilərdə yerləşən bir torpaq sahəsində (parseldə) və ya bir neçə torpaq sahəsindən (parseldən) ibarət vahid ərazidə salınan və sahəsi azı 5 hektar olan və 1 hektara minimum 1000 ədəd sertifikatlı tingin əkildiyi (ocağın olduğu) intensiv fındıq bağlarının hər hektarına görə 8050 manat;

• Qeyd edilən bağlara (püstə bağları istisna olmaqla) görə əkin subsidiyasının alınması üçün bu bağların “Aqrar sığorta haqqında” Azərbaycan Respublikasının Qanununa müvafiq sığorta edilməsi tələb olunur.

• Bağın salınmasına görə əkin subsidiyasının alınması üçün bağların salınmasında istifadə edilən tinglər fitosanitar cəhətdən reqlamentdə qeyd olunmuş zərərli orqanizmlərdən azad olmalıdır.

Həmçinin Aqrar Subsidiya Şurasının qərarına uyğun olaraq müasir suvarma sistemləri ilə təmin olunmuş şəkər çuğunduru sahəsinə veriləcək məhsul subsidiyasının məbləği 19 manatdan 22 manata, müasir suvarma sistemləri ilə təmin olunmamış sahəyə isə veriləcək məhsul subsidiyasının məbləği isə 18 manatdan 19 manata çatdırılmışdır.

## Naxçıvanda yeni elektrik sayğacları quraşdırılır

Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 23 noyabr tarixli “Elektrik enerjisi və su təchizatı sahələrində idarəetmənin təkmilləşdirilməsi və bununla əlaqədar bəzi məsələlərin tənzimlənməsi haqqında” Fərmanına uyğun olaraq Naxçıvan Muxtar Respublikası Dövlət Energetika Xidmətinin funksiyalarının “Azərenerji” və “Azərişıq” Açıq Səhmdar cəmiyyətlərinə ötürülməsi istiqamətində işlər davam etdirilir.

Cəmiyyətlərin balans mənsubiyyətləri sərhədlərində olacaq elektrik stansiyalarından, transformator yarımstansiyalarından və sistemtəşkiledici elektrik verilişi xətlərindən keçən elektrik enerjisinə real vaxtda alına biləcək ölçülər əsasında fasiləsiz nəzarət etmək üçün məsafədən oxunan, nəzərdə tutulan “SCADA” sisteminə birləşdirilməyə texniki





imkanı olan yeni elektrik sayğaclarının quraşdırılmasına başlanılıb.

Yaxın zamanlarda cəmiyyətlərin Baş İdarəetmə Mərkəzini yaratmaq, onların fəaliyyətini müasir texnoloji platforma əsasında həyata keçirmək və avtomatlaşdırılmış dispetçer idarəetməsini reallaşdırmaq, enerji sisteminin avtomatik idarəedilməsinin, idxal-ixrac proseslərinin, tənzimləmələrin həyata keçirilməsi və əməliyyatların insan müdaxiləsi olmadan məsafədən aparılması nəzərdə tutulur.

# Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatlarının 2025-ci ilin fevral ayında vətəndaşların qəbulu cədvəli

| № | Deputat | Tarix və yer | Əlaqələndirici şəxslər və əlaqə nömrələri |
|---|---|---|---|
| 1. | 1 saylı Sədərək seçki dairəsi üzrə İsmayılov Mahir İslam oğlu | 14.02.2025, saat $10^{30}$, Sədərək rayonu, Heydərabad Qəsəbə İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası | Əhmədov Vətən Abbas oğlu, 050-453-14-49 |
| 2. | 2 saylı Dəmirçi seçki dairəsi üzrə Quliyeva Zeynəb Kərim qızı | 22.02.2025, saat $11^{00}$, Sədərək rayonu, Qaraağac Kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası | Novruzov Elçin Abil oğlu, 060-569-45-73 |
| 3. | 3 saylı Maxta seçki dairəsi üzrə Şıxəliyev Emin Arif oğlu | 08.02.2025, saat $11^{00}$, Şərur rayonu, Maxta Kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası | Şirəliyev Musa Rzaqulu oğlu, 050-663-29-60<br>Abbasov Hüseyn Mübariz oğlu, 060-515-05-51 |
| 4. | 4 saylı Yengicə seçki dairəsi üzrə Abbasov Əli Feyzulla oğlu | 27.02.2025, saat $15^{00}$, Şərur rayonu, Yengicə Kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası | Nəcəfov Milad Niyaz oğlu, 060-201-11-91 |
| 5. | 5 saylı Çomaxtur seçki dairəsi üzrə Nəcəfsoy Pərvin Vidadi qızı | 25.02.2025, saat $15^{00}$, Şərur rayonu, Çomaxtur Kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası | Nəcəfsoy Aqil Yediyar oğlu, 050-405-43-85 |
| 6. | 6 saylı Çərçiboğan seçki dairəsi üzrə Babayeva Aynur Arif qızı | 04.02.2025, saat $11^{00}$, Şərur rayonu, Ərəbyengicə Kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası | Məmmədova Nuranə Arif qızı, 070-523-64-12 |
| 7. | 7 saylı Xanlıqlar seçki dairəsi üzrə Novruzov Azad Sevindik oğlu | 14.02.2025, saat $10^{30}$, Şərur rayonu, Dərəkənd Kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası | Bağırov Turqay Faiq oğlu, 060-550-20-20 |
| 8. | 8 saylı Düdəngə seçki dairəsi üzrə Bayramov Mübariz Rəcəb oğlu | 21.02.2025, saat $15^{00}$, Şərur rayonu, Zeyvə Kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası | Əhmədova Fatimə Hüseyn qızı, 060-209-99-93 |
| 9. | 9 saylı Mahmudkənd seçki dairəsi üzrə Şükürov Kamil Qəzənfər oğlu | 04.02.2025, saat $15^{00}$, Şərur rayonu, Mahmudkənd Kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası,<br>12.02.2025, saat $15^{00}$, Şərur rayonu, Oğlanqala Kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası,<br>10.02.2025, saat $15^{00}$, Şərur rayonu, Məmmədsabir Kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası,<br>25.02.2025, saat $15^{00}$, Şərur rayonu Muğancıq-Mehrab Kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası | Əliyev Mehman Vəli oğlu, 050-647-50-04<br>Hüseynov Ənvər Ələsgər oğlu, 060-416-95-10<br>Nəcəfov Məhəmməd Ramazan oğlu, 060-310-07-06 |
| 10. | 10 saylı Şərur şəhər seçki dairəsi üzrə Hacıyeva Sevil Məhəmmədəli qızı | 21.02.2025, saat $15^{00}$, Şərur Rayon Mərkəzləşdirilmiş Kitabxana Sisteminin binası | İsmayılova Mahı Arif qızı, 070-755-00-76 |
| 11. | 11 saylı Aşağı Yaycı seçki dairəsi üzrə Həsənova Sevinc Nəsrəddin qızı | 10.02.2025, saat $15^{00}$, Şərur rayonu, Yuxarı Daşarx Kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası | Kərimova Tərifə Məmməd qızı, 050-719-85-39 |
| 12. | 12 saylı İbadulla seçki dairəsi üzrə Məmmədov Məmməd Kərəm oğlu | 08.02.2025, saat $15^{00}$, Şərur rayonu, Ələkli Kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası,<br>15.02.2025, saat $15^{00}$, Şərur rayonu, Vərməziyar Kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası | Məmmədli Çinarə Məmməd qızı, 077-322-86-86 |
| 13. | 13 saylı Püsyan seçki dairəsi üzrə Novruzov Rafiq Novruz oğlu | 21.02.2025, saat $15^{00}$, Şərur rayonu, Təzəkənd kənd sakinləri, Təzəkənd tam orta məktəbinin binası | İbrahimov Allahverdi İsa oğlu, 050-571-33-03 |
| 14. | 14 saylı Qarabağlar seçki dairəsi üzrə Zeynalov Təbriz Eyvaz oğlu | 14.02.2025, saat $11^{30}$, Kəngərli rayonu, Yurdçu Kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası | Musayev Musa Abdulla oğlu, 060-418-18-88 |
| 15. | 15 saylı Qıvraq seçki dairəsi üzrə Orucova Xəzəngül Yunis qızı | 05.02.2025, saat $10^{30}$, Kəngərli rayonu, Şahtaxtı Kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası,<br>07.02.2025, saat $11^{00}$, Kəngərli rayonu, Qıvraq Qəsəbə İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası | Məmmədova Vəfa Elman qızı, 060-491-30-96 |
| 16. | 16 saylı Xok seçki dairəsi üzrə Məmmədov Mövlan Ələddin oğlu | 25.02.2025, saat $15^{00}$, Kəngərli rayonu, Yeni Kərki Kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası | Hacızadə Qorxmaz Vahid oğlu, 050-749-63-10 |
| 17. | 17 saylı Nehrəm seçki dairəsi üzrə Cəfərov Rauf Mehralı oğlu | 12.02.2025, saat $15^{00}$, Babək rayonu, Nehrəm Qəsəbə İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası | Hüseynov Elvin Hüseyn oğlu, 050-246-67-78 |
| 18. | 18 saylı Nehrəm seçki dairəsi üzrə Rzayev Teymur Yaqub oğlu | 14.02.2025, saat $15^{00}$, Babək rayonu, Çeşməbasar və Güznüt kənd sakinləri, Güznüt Kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası | Axundov Simral Fərəc oğlu, 050-289-05-78 |
| 19. | 19 saylı Babək şəhər seçki dairəsi üzrə Allahverdiyeva Həbibə Rəşad qızı | 21.02.2025, saat $10^{00}$, Babək rayonu, Hacıvar Kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası | Fərzəliyeva Nurşanə İntiqam qızı, 051-923-54-56 |
| 20. | 20 saylı Zeynəddin seçki dairəsi üzrə Həşimov Əli Həsənqulu oğlu | 11.02.2025, saat $11^{00}$, Babək rayonu, Zeynəddin Kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası | İbrahimov Namin Cabbar oğlu, 060-398-20-25 |
| 21. | 21 saylı Sirab seçki dairəsi üzrə Qənbərov Qafar Tahar oğlu | 19.02.2025, saat $15^{00}$, Babək rayonu, Qaraqala kənd tam orta məktəbinin binası | Qənbərli Gülcan Qafar qızı, 060-201-41-01 |
| 22. | 22 saylı Şıxmahmud seçki dairəsi üzrə Məmmədov Üzeyir Səyyad oğlu | 19.02.2025, saat $11^{00}$, Babək rayonu, Gülşənabad Kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası | Həsənəliyev Fərid Rasim oğlu, 060-541-94-95 |
| 23. | 23 saylı Cəhri seçki dairəsi üzrə Bayramova Ülkər İmamqulu qızı | 14.02.2025, saat $11^{00}$, Babək rayonu, Cəhri Qəsəbə İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası | Quliyev Emil Orxan oğlu, 077-545-85-90 |
| 24. | 24 saylı Naxçıvan şəhər seçki dairəsi üzrə Əliyeva Nuray Yadigar qızı | 24.02.2025, saat $15^{00}$, Naxçıvan şəhəri, Qaraxanbəyli Kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası | Seyidli Sabirə Azər qızı, 099-308-00-47 |
| 25. | 25 saylı Naxçıvan şəhər seçki dairəsi üzrə Məmmədova Xumar Şəmsi qızı | 27.02.2025, saat $11^{00}$, Naxçıvan şəhəri, 4 saylı Saha İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası | Hüseynli Bəhriyə Məzayıl qızı, 060-387-07-77, 036-550-08-29 |
| 26. | 26 saylı Naxçıvan şəhər seçki dairəsi üzrə Orucov Asəf Yunis oğlu | 11.02.2025, saat $15^{00}$, Naxçıvan şəhəri, Heydər Əliyev adına tam orta məktəbin binası | Əliyev Səfər Səxavət oğlu, 060-485-25-85<br>Məmmədova Ziniyət Zakir qızı, 060-544-23-13 |
| 27. | 27 saylı Naxçıvan şəhər seçki dairəsi üzrə Məmmədzadə Vüsal Əziz oğlu | 21.02.2025, saat $11^{00}$, Naxçıvan şəhəri, 2 saylı Mənzil İstismar İdarəsinin inzibati binası | Məmmədli Röyal Vüsal oğlu, 060-200-54-64 |
| 28. | 28 saylı Naxçıvan şəhər seçki dairəsi üzrə Babayeva Təhminə Adil qızı | 20.02.2025, saat $16^{00}$, Naxçıvan şəhəri, 8 nömrəli tam orta məktəbin binası | Cəlilzadə Səkinə Əhməd qızı, 051-310-55-38 |
| 29. | 29 saylı Naxçıvan şəhər seçki dairəsi üzrə Məmmədov Bəhruz Qibləli oğlu | 21.02.2025, saat $15^{00}$, Naxçıvan şəhəri, 7 saylı uşaq bağçasının binası | Rəhimov Vüsal Musa oğlu, 060-333-00-23 |
| 30. | 30 saylı Naxçıvan şəhər seçki dairəsi üzrə Əhmədova Şəhla Hüseyn qızı | 20.02.2025, saat $15^{00}$, Naxçıvan şəhəri, 5 saylı uşaq bağçasının binası | Əhmədova Arzu Rza qızı, 060-384-34-30 |
| 31. | 31 saylı Naxçıvan şəhər seçki dairəsi üzrə Məmmədov Nazim Məmməd oğlu | 07.02.2025, saat $15^{00}$, Naxçıvan şəhəri, 14 nömrəli tam orta məktəbin binası | Hüseynov Sərvər Zeyqəm oğlu, 050-364-05-06 |
| 32. | 32 saylı Naxçıvan şəhər seçki dairəsi üzrə Qasımov Əziz Kamal oğlu | 08.02.2025, saat $15^{00}$, Naxçıvan şəhəri, Xətai məhəllə sakinləri, səyyar qəbul,<br>24.02.2025, saat $19^{00}$, Naxçıvan şəhəri, Universitet şəhərciyi, Tələbə yataqxanası | Rəhimov İntiqam Rəhim oğlu, 055-873-85-86 |
| 33. | 33 saylı Naxçıvan şəhər seçki dairəsi üzrə Dünyamalıyeva Aysel Məmməd qızı | 20.02.2025, saat $15^{00}$, Naxçıvan şəhəri, Xalça İplik İstehsalı Müəssisəsinin binası | Əhmədova Arzu Rza qızı, 060-384-34-30 |
| 34. | 34 saylı Şahbuz şəhər seçki dairəsi üzrə Rüstəmova Gülşad Qəzənfər qızı | 15.02.2025, saat $11^{00}$, Şahbuz rayonu, Şahbuz şəhər "Araz" kinoteatrının binası | Rzayev Əli Firudin oğlu, 050-337-69-44 |
| 35. | 35 saylı Kolanı seçki dairəsi üzrə Tarverdiyeva Gülxarə Budaq qızı | 07.02.2025, saat $11^{00}$, Şahbuz rayonu, Ayrınc Kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası | Adilzadə Adil Azər oğlu, 060-307-07-37 |
| 36. | 36 saylı Badamlı qəsəbə seçki dairəsi üzrə Məmmədov Ramiz Gülməmməd oğlu | 25.02.2025, saat $16^{00}$, Şahbuz rayonu, Badamlı Qəsəbə İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası | Qasımov Bəhlul Fərəməz oğlu, 050-483-29-78 |
| 37. | 37 saylı Culfa şəhər seçki dairəsi üzrə Əliyev Əjdər Zahid oğlu | 19.02.2025, saat $10^{00}$, Culfa Şəhər İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası | Məmmədov Rəhman Abasət oğlu, 060-469-08-69, 077-569-43-65 |
| 38. | 38 saylı Yaycı seçki dairəsi üzrə Xudiyev Rza Əli oğlu | 14.02.2025, saat $11^{00}$, Culfa rayonu, Şurud Kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası,<br>14.02.2025, saat $15^{00}$, Culfa rayonu, Gal Kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası | Əliyev Əli Şəmsəddin oğlu, 050-740-20-27<br>Canbaxşiyev Səməd Canbağış oğlu 060-252-15-19 |
| 39. | 39 saylı Bənəniyar seçki dairəsi üzrə Abdullayev Qəzənfər İsmayıl oğlu | 18.02.2025, saat $11^{00}$, Culfa rayonu, Kırna Kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası | Əsgərov Elnur Lazar oğlu, 055-299-15-99, 060-211-82-42 |
| 40. | 40 saylı Saltaq seçki dairəsi üzrə Canməmmədov Canməmməd Ramiz oğlu | 11.02.2025, saat $10^{00}$, Culfa rayonu, Xanəgah Kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası,<br>18.02.2025, saat $10^{00}$, Culfa rayonu, Saltaq Kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası | Təhməzov Rafiq Rafiq oğlu, 060-406-07-77 |
| 41. | 41 saylı Ordubad şəhər seçki dairəsi üzrə Məmmədov Bəxtiyar İbrahim oğlu | 13.02.2025, 27.02.2025, saat $11^{00}$, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin inzibati binası | Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Vətəndaşların qəbulu sektoru, 036-544-01-43 |
| 42. | 42 saylı Aşağı Əndəmic seçki dairəsi üzrə Abdullayev Arzu Kamal oğlu | 06.02.2025, 20.02.2025, saat $15^{00}$, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin inzibati binası,<br>18.02.2025, saat $15^{00}$, Ordubad rayonu, Yuxarı Əndəmic Kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası | Hacıyev Çinar Sahib oğlu, 060-352-52-53 |
| 43. | 43 saylı Vənənd seçki dairəsi üzrə Nəbiyev Ramil Paşa oğlu | 21.02.2025, saat $15^{00}$, Ordubad rayonu, Unus Kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası | Əhmədov Ziyad Mehman oğlu, 070-280-75-01, 557-37-59 |
| 44. | 44 saylı Dəstə seçki dairəsi üzrə Rzayev Elmar İlqar oğlu | 04.02.2025, saat $15^{00}$, Ordubad rayonu, Düylün kənd tam orta məktəbinin binası,<br>11.02.2025, saat $15^{00}$, Ordubad rayonu, Çənnəb kənd tam orta məktəbinin binası | Rzayev Elmir Elmar oğlu, 055-317-62-01 |
| 45. | 45 saylı Sabirkənd seçki dairəsi üzrə Əhmədova Gülxarə Mənaf qızı | 13.02.2025, saat $11^{00}$, Ordubad rayonu, Parağa Kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası,<br>13.02.2025, saat $12^{00}$, Ordubad rayonu, Behrud kənd mərkəzinin inzibati binası | Əhmədov Suat Yusif oğlu, 060-200-09-30, 077-573-75-00 |

# Konstitusiya və Suverenlik İli:




***Dünyada insan üçün azadlıqdan, dövlət üçün isə müstəqillikdən dəyərli heç nə yoxdur. Müstəqil dövlətin azad vətəndaşı olmaq isə heç də bütün insanlara qismət olmayan ən böyük xoşbəxtlikdir. Xalqımıza bəxş olunan bu xoşbəxtliyin müəllifi tariximizin Ümummilli Lideri Heydər Əliyevdir.***

# Azərbaycanın gələcəyinə doğru addımlar

**Müstəqilliyin bərpası və Azərbaycan Konstitusiyasının əhəmiyyəti**

1991-ci ildə Azərbaycan Sovet İttifaqından ayrılaraq özünü müstəqil dövlət elan etdikdən sonra bir sıra çətin və mürəkkəb məsələlər meydana çıxdı. Bu məsələlərdən ən önəmlisi isə yeni bir Konstitusiyanın qəbul edilməsi idi. İlk mərhələdə müstəqilliyin təmin edilməsi üçün müvafiq hüquqi və siyasi tədbirlər görüldü, lakin 1991-1993-cü illərdəki siyasi və idarəetmə böhranı ölkənin daxili vəziyyətini çətinləşdirmişdi.

1993-cü ildə xalqın təkidli tələbi ilə hakimiyyətə gələn Ümummilli Lider Heydər Əliyev Azərbaycanın dövlət müstəqilliyinin qorunması və sabitliyin təmin edilməsi istiqamətində mühüm addımlar atdı. Ulu Öndər müstəqilliyini bərpa etmiş Azərbaycan Respublikasını Xalq Cümhuriyyətinin taleyini yaşamağa imkan vermədi, özünün müdrik siyasəti və dəmir iradəsi ilə bu müstəqilliyi qoruyub saxladı. Görkəmli dövlət xadiminin böyük inamla söylədiyi bu fikirlər ölkəmizin gələcək inkişafına hər kəsin qəlbində böyük ümidlər yaratdı: ***"Ona da əmin ola bilərsiniz ki, Azərbaycan dövlətinin, Prezidentinin apardığı siyasət və həyata keçirdiyi tədbirlər Azərbaycanın dövlət müstəqilliyini günü-gündən möhkəmləndirir və yüksəklərə qaldırır. Azərbaycanın dövlət başçısı kimi mən deyirəm, bilin, – bundan sonra Azərbaycan heç kəsdən asılı, heç kəsin vassalı olmayacaqdır. Ancaq özü öz taleyini hər gün həll edəcək və öz gələcəyini müəyyənləşdirəcəkdir. Azərbaycan müstəqil, sərbəst qalacaqdır".***

XX əsrin son onilliyində Azərbaycan xalqı ikinci dəfə öz müstəqilliyini "Azərbaycan Respublikasının Dövlət Müstəqilliyi haqqında" 18 oktyabr 1991-ci il tarixli Konstitusiya Aktı ilə bərpa etməyə nail oldu. Amma Dövlət Müstəqilliyi haqqında Konstitusiya Aktının qəbul edilməsinə baxmayaraq, Konstitusiya Aktında Azərbaycan Respublikası vətəndaşlarının real hüquq və vəzifələri, dövlətimizin məram və məqsədləri tam əks olunmamışdı. Belə bir vəziyyətdə ölkədə Konstitusiya boşluğu açıq-aydın görünürdü. Bu tarixi zərurət nəzərə alınaraq Azərbaycan Respublikası Milli Məclisinin 2 may 1995-ci il tarixli Qərarı ilə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin sədrliyi ilə 33 nəfərdən ibarət Konstitusiya komissiyası yaradıldı. Konstitusiya komissiyasının sədri, görkəmli dövlət xadimi Heydər Əliyev yeni, milli Konstitusiyanı son dərəcə mükəmməl bir sənəd kimi hazırlamağı tövsiyə edərək deyirdi: ***"Biz elə bir layihə hazırlamalı və nəhayət, elə bir Konstitusiya qəbul etməliyik ki, o, müstəqil Azərbaycan Respublikasının demokratik prinsiplər əsasında uzun müddət sabit yaşamasını təmin edən Əsas Qanun, tarixi sənəd olsun".*** Beləliklə, Ümummilli Liderin rəhbərliyi altında 1995-ci ildə qəbul edilən Azərbaycan Respublikasının ilk milli Konstitusiyası ölkəmizin hüquqi quruluşunun əsasını qoymuş, yeni dövlətin gələcək inkişafına təkan vermişdir. Müstəqilliyimizin əsas atributu olan Azərbaycan Respublikası Konstitusiyasının qəbul edilməsi Azərbaycanın dövlət və hüquq tarixində xüsusi yer tutan mühüm hadisələrdən biridir. Ümumxalq səsverməsi yolu ilə ilk milli Konstitusiyasının qəbul edilməsi ölkəmizdə insan və vətəndaş hüquq və azadlıqlarının təmin edilməsini dövlətin ali məqsədi olaraq təsbit etdi.

Konstitusiyamızda Azərbaycan dövlətinin əsasları, vətəndaşların əsas hüquq və azadlıqları ilə yanaşı, vətəndaşların əsas vəzifələri də, yəni konstitusion vəzifələri də öz əksini tapmışdır. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sözləri ilə desək: ***"Bu gün qarşımızda duran əsas vəzifələrdən biri Konstitusiyamızın təbliği, onun əsas prinsip və müddəalarının dərindən öyrənilməsi və hər bir vətəndaşın yaşayış normasına çevrilməsidir".***

**Ermənistanın işğalçı siyasəti və Azərbaycanın ərazi bütövlüyü**

Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra qarşılaşdığımız ən böyük problemlərdən biri də Ermənistanın işğalçı siyasəti olmuşdur. Bu vandal dövlətin Azərbaycana qarşı başladığı təcavüz nəticəsində ölkə ərazisinin 20 faizi, o cümlədən Qarabağ bölgəsi 30 il müddətində işğal altında qalmışdır. Bu vəziyyət Azərbaycan dövlətinin suverenliyinin bu ərazilərdə tətbiqinə imkan verməmiş, xalqımızın ərazi bütövlüyü ideyasını qorumaq və bu torpaqları geri qaytarmaq istiqamətindəki mübarizəsini daha da gücləndirmişdir. İşğal altındakı torpaqların geri alınması yalnız hərbi müstəvidə deyil, diplomatik, hüquqi və sosial sahələrdə Azərbaycanın əsas hədəfi olmuşdur. Bu həm də ölkəmizin xarici siyasətinin əsasını təşkil etmiş, Azərbaycanın beynəlxalq müstəvidə hüquqlarını müdafiə etməsi üçün vacib addımların atılmasına gətirib çıxarmışdır.

***Vətən müharibəsi və ərazi bütövlüyünün bərpası***

Azərbaycanın suverenliyi və ərazi bütövlüyünün bərpası yolundakı ən mühüm mərhələ 2020-ci ilin sentyabr ayında Vətən müharibəsi ilə başlandı. Ermənistanın təxribatlarına cavab olaraq Azərbaycan Silahlı Qüvvələri erməni əsarətində qalmış torpaqlarını geri qaytarmaq üçün hərbi əməliyyatlara başladı. Bu müharibə yalnız Azərbaycan xalqının torpaq uğrunda apardığı mübarizə deyil, həm də Azərbaycanın dövlət müstəqilliyi və suverenliyinin qorunması uğrunda böyük bir mücadilə idi. Müharibə nəticəsində torpaqlarımız düşmən tapdağından azad olundu. Bu həm də Azərbaycan Konstitusiyasının hüquqi qüvvəsinin bütün ərazilərdə bərqərar olmasını təmin etdi. 2023-cü ildə həyata keçirilən uğurlu antiterror əməliyyatı ilə Azərbaycanın suverenliyi bu ərazilərdə tam şəkildə bərpa edildi. Xankəndi şəhərində Azərbaycan Bayrağının ucaldılması ilə dövlət suverenliyimiz tam bərqərar oldu.

Ölkə başçısı cənab İlham Əliyevin ötən il sentyabrın 19-da "Azərbaycan Respublikasında Dövlət Suverenliyi Gününün təsis edilməsi haqqında" Sərəncamı isə tarixboyu öz xüsusi əhəmiyyəti ilə seçiləcək. Azərbaycan dövlətinin, xalqımızın tarixində ən parlaq səhifələrdən biri olan sentyabrın 20-si Sərəncama əsasən hər il ölkəmizdə "Dövlət Suverenliyi Günü" kimi qeyd edilir.

**2025-ci il: "Konstitusiya və Suverenlik İli"**

Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 28 dekabr tarixli Sərəncamı ilə 2025-ci il "Konstitusiya və Suverenlik İli" elan edilib. Bu Sərəncam Azərbaycan xalqının dövlət müstəqilliyi və suverenliyi uğrunda apardığı mübarizənin əhəmiyyətini vurğulayan mühüm addımdır. 2025-ci il həm də Azərbaycanın Konstitusiyasının qəbul edilməsinin 30-cu, həmçinin Vətən müharibəsindəki qələbənin 5-ci ildönümünü qeyd etmək üçün əlamətdar bir il olacaq. Ölkə başçısı bu əlamətdar ili qeyd etmək və ölkənin müstəqilliyinin qorunması istiqamətində atılacaq yeni addımları planlaşdırmaq məqsədilə müvafiq Tədbirlər Planının hazırlanması üçün tapşırıqlar vermişdir. Bu tədbirlər Azərbaycanın suverenliyi və ərazi bütövlüyü məsələlərinin daha da güclənməsinə və ölkəmizin gələcək inkişafına yönəlik mühüm bir yol xəritəsi olacaqdır.

"Konstitusiya və Suverenlik İli" Azərbaycanın dövlətçilik tarixində yeni bir mərhələnin başlanğıcı olacaq, həmçinin ölkəmizin beynəlxalq arenada daha güclü mövqeyə sahibliyini və öz suveren hüquqlarını qorumaq istiqamətində prinsipial mövqe tutacağını bir daha nümayiş etdirəcəkdir. Atılacaq məqsədyönlü addımlar nəticəsində Azərbaycan yeni hədəflərinə də çatacaq. Eyni zamanda ölkəmiz müstəqil və suveren dövlət olaraq dünya ölkələri ilə qarşılıqlı əməkdaşlıq və dialoq şəraitində bir çox strateji hədəflərə doğru inamla irəliləyəcəkdir. Azərbaycan xalqının güclü iradəsi və dövlət rəhbərinin düzgün və qətiyyətli siyasəti bunu inamla söyləməyə əsas verir.

**Faiq SƏFƏROV**
*Naxçıvan Muxtar Respublikası Prokurorluğunun şöbə rəisi, baş ədliyyə müşaviri, prokurorluğun fəxri işçisi*

# Gənclər ölkəmizin həyatında mühüm rol oynayır



**Aysel DÜNYAMALIYEVA**
*Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı*

Əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan gənclər siyasətinə uyğun həyata keçirilən tədbirlər gənc nəslin həyatında geniş imkanlar açmış oldu. Ümummilli Liderimiz Heydər Əliyev sağlam nəslin yetişdirilməsini dövlət və cəmiyyətin mühüm vəzifəsi kimi daim diqqət mərkəzində saxlamış, onların dövlətin və cəmiyyətin sosial-iqtisadi, ictimai-siyasi və mədəni həyatında iştirakının təmin edilməsini vacib məsələ elan etmişdir. 1996-cı il fevralın 2-də Azərbaycan Gənclərinin I Forumunun keçirilməsi, bundan sonra hər il fevralın 2-nin ölkəmizdə "Gənclər Günü" kimi qeyd olunması bu sahədə görülən işlərin tərkib hissəsi olaraq mühüm əhəmiyyət daşıyır. Forumda gənclər təşkilatlarının və gənclərimizin qarşısında mühüm vəzifələr qoyulmuş, gənc nəslin hərtərəfli inkişafı, problemlərinin həlli sahəsində ciddi tədbirlərin görülməsi aid dövlət orqanlarının əsas vəzifəsi kimi müəyyənləşdirilmişdir.

2003-cü ildən sonrakı dövrdə isə dahi siyasətçinin layiqli davamçısı Prezident cənab İlham Əliyev gənclər siyasətinin inkişaf istiqamətini mövcud ənənələr əsasında daha da təkmilləşdirdi. Azərbaycan gəncliyi ilə bağlı Dövlət proqramları qəbul edildi, 2007-ci il "Gənclər ili" elan olundu, 2011-ci ildə Gənclər Fondu yaradıldı, 2013-cü ildə ölkədə ilk dəfə "Gənclər üçün Prezident Mükafatı" təsis olundu, "2015-2025-ci illərdə Azərbaycan gənclərinin İnkişaf Strategiyası" təsdiqləndi və bu istiqamətlər üzrə əhəmiyyətli layihələr icra olundu. Bu sahədə görülən işlərin nəticəsidir ki, milli ruhda tərbiyələndirilən Azərbaycan gəncləri müxtəlif sahələrdə uğurlu fəaliyyəti, qazandığı nailiyyətlərlə yanaşı, tariximizin ən önəmli dövrlərindən biri olan 44 günlük Vətən müharibəsindəki qəhrəmanlığı, siyasi və sosial aktivliyi ilə Vətən, xalq və dövlətçilik qarşısında mühüm faktor kimi özünü doğrultdu. Həmin gənclərin vətənpərvərliyi, şücaəti daim yüksək qiymətləndirilir. Ölkə Prezidentinin dediyi kimi: ***"Mən çalışmışam ki, fəaliyyətim dövründə gənclərin tərbiyə olunması ilə bağlı daha çox işlər görək. Çox şadam, fəxr edirəm ki, Vətən uğrunda, torpaq uğrunda qabağa gedənlərin əksəriyyəti gənclər idi. Bu hər birimiz üçün qürur mənbəyidir. Çünki elə bir gənc nəsil yetişdi ki, hətta Qarabağı görməyən, o acı tarixi görməyən gənclər Qarabağ uğrunda, Vətən uğrunda, milli ləyaqət uğrunda ölümə gedirdilər və şəhid oldular, qazi oldular və müzəffər Ordumuzun şöhrətini yüksəklərə qaldırdılar. Əgər bu siyasət olmasaydı, əgər gənclər vətənpərvərlik ruhunda tərbiyə almasaydılar, bilmək olmazdı müharibənin nəticələri necə ola bilərdi".***

Bu gün cəmiyyətimizin böyük hissəsini təşkil edən gənclər ölkəmizin həyatında çox önəmli rol oynayır. Gənc nəslin təşəbbüsləri, onların əməyi bu gün hər yerdə görünməkdədir. Azərbaycan gəncləri azad, sabit, özünə güvənən ölkədə yaşayır.

Gənc idmançılarımızın qələbələri və ölkəmizdə keçirilən müxtəlif beynəlxalq yarışlar Azərbaycanı bir daha idman ölkəsi kimi təsdiqləyir. 1997-ci ildən etibarən Azərbaycan Milli Olimpiya Komitəsinin Prezidenti seçilmiş dövlət başçısı cənab İlham Əliyev gənclərin idmana cəlb olunması məsələsinə xüsusi diqqət ayırır.

Birinci Avropa Oyunları Təşkilat Komitəsinin sədri Mehriban xanım Əliyevanın təşəbbüsü ilə dünyanın müxtəlif ölkələrində keçirilən "Bakı-2015" Birinci Avropa Oyunlarının təqdimatları Azərbaycan reallıqlarının, eyni zamanda bu mühüm idman bayramının təbliğində əhəmiyyətli rol oynadı. Birinci Avropa Oyunları çərçivəsində 20 idman növü üzrə yarışlar paytaxtımızda 21 idman obyektində keçirilmişdir. Dünyanın idman tarixinə düşmüş bu oyunlarda 50 ölkəni təmsil edən 6 mindən artıq idmançı sağlam rəqabət uğrunda mübarizəyə qatılmışdır.

Ölkə Prezidenti cənab İlham Əliyevin həyata keçirdiyi dövlət gənclər siyasəti nəticəsində gənclərimiz cəmiyyətimizin inkişafında fəal sosial təbəqəyə çevrilmişdir. Son illər bu sahədə görülən işlərin, həyata keçirilən tədbirlərin nəticəsidir ki, bu gün Azərbaycan gəncləri öz intellektual səviyyələri, bilik və bacarıqları ilə dünyada tanınır və qəbul olunurlar. Böyük iftixarla demək olar ki, müasir Azərbaycan gəncliyi milli-mənəvi dəyərlərimizi, doğma ana dilimizi, ata-babalardan qalan gözəl adət-ənənələrimizi göz bəbəyi kimi qoruyub yaşadır.

Məhz dövlətin gənclərə dəstək və diqqət göstərməsinin nəticəsində Azərbaycan gəncliyində özünə, öz gücünə, istedadına inam hissi artıb. Prezident cənab İlham Əliyevin gənclərin potensialının gerçəkləşməsinə, onların vətənpərvər, savadlı kadr kimi yetişməsinə, gənc ailələrin sosial təminatına yönələn tədbirləri dövlətin uzaqgörən siyasətinin göstəricisi kimi qiymətləndirilməlidir. Mütəmadi olaraq təkmilləşdirilən gənclər siyasəti gənc nəslin ictimai-siyasi həyatdakı rolunun artmasına, ölkənin aparıcı qüvvəsinə çevrilməsinə, bütövlükdə, kreativ gəncliyin formalaşmasına şərait yaradıb.

Müasir dövr Azərbaycan gəncliyinin ən böyük qəhrəmanlıq salnaməsi, şübhəsiz ki, İkinci Qarabağ müharibəsində göstərdikləri rəşadətli mübarizə ilə bağlıdır. Qarabağı azad etmək uğrunda gedən döyüşlərdə sinəsini sipər edən, düşmənin üzərinə gedənlər, ilk növbədə, gənclər oldu. Müharibəyə yollanan gənclərin hamısı döyüşlərdə qəhrəmancasına iştirak edərək bütün dünyaya Azərbaycan gəncinin nəyə qadir olduğunu sübut ediblər. Hər biri öz cəsurluğu, igidliyi ilə vətənpərvərlik salnaməsi, qələbə dolu döyüş yolu ilə yeni tarix yazdı.

# Yeni ixtisaslar hansı sahələri əhatə edəcək?



Günümüzdə əmək bazarının tələbləri davamlı olaraq dəyişildiyindən bəzi peşələrə, ümumiyyətlə, ehtiyac qalmır, əvəzində isə yeni yaranan peşə sahələrinə tələbat, həmin peşə üzrə mütəxəssis hazırlığı aparmaq üçün təsnifatın yenilənməsi və təsnifata yeni ixtisasların əlavə edilməsi zərurəti yaranır. Texnologiyanın sürətlə inkişafı, süni intellektin həyatımızdakı artan rolu da İT əsaslı ixtisaslara tələbatı artırmaqdadır. Son günlərdə bakalavr səviyyəsi üzrə 7 yeni ixtisas təsnifata əlavə olunub. Həmin ixtisaslar yeni dövrə uyğun, cəmiyyətin bütün sahələrində inkişafa təkan verə biləcək ixtisaslardır. Biz də mövzu ilə bağlı daha ətraflı məlumatı Naxçıvan Dövlət Universitetinin Tədris şöbəsinin müdiri Şahin Əliyevdən aldıq.

Şahin müəllim bildirdi ki, 2025-2026-cı tədris ilindən tədris olunacaq yeni ixtisaslara marağın artırılması təkcə ali təhsil müəssisələrinin işi olmalı deyil, bu, eyni zamanda əmək bazarının da marağında olan məsələdir.

Müsahibimiz deyir ki, bu ixtisaslar içərisində Data analitikası var. Data analitikası müxtəlif üsullardan istifadə edərək dataları götürür, həmin dataları təhlil və analiz edir, nəticələr və onlara əsaslanan proqnozlar barədə vizual hesabatlar hazırlayaraq şirkətlərə daha yaxşı iş qərarları verməlvarində kömək edir. Pərakəndə və e-ticarət, maliyyə və bank işi, səhiyyə, istehsal və təchizat zənciri, nəqliyyat və logistika, marketinq kimi sahələrdə bu ixtisaslara ehtiyac duyulmaqdadır. Düşünürük ki, bu ixtisasın təsnifata daxil edilməsi həmin sahələrdə olan çətinlikləri aradan



qaldıracaq və əmək bazarını ehtiyac olan peşə sahibləri ilə təmin edəcəkdir.

Yaradılan digər ixtisas Qida texnologiyalarıdır. Qeyd olunmalıdır ki, qida məhsullarının istehsalında yeni sənaye metodlarının tətbiqi xüsusi əhəmiyyət kəsb edir. Qida istehsalı sənayesi qarşısında duran əsas məsələlərdən biri də insanları ekoloji təmiz və təhlükəsiz emal edilmiş məhsullarla təmin etməkdir. Yeni açılan ixtisas üzrə mütəxəssislər əmək bazarında özlərinə yer tapandan sonra bu məsələlər də öz həllini tapmış olacaq.

Şahin müəllimin sözlərinə görə, gələcəkdə kənd təsərrüfatı texnologiyaları süni intellektlə ən son əvəzlənəcək ixtisaslardan biridir. Dünyada ərazisinə görə Azərbaycandan kiçik və daha az torpaq resurslarına malik ölkələr var ki, məhz müasir texnologiyalardan istifadə sayəsində kənd təsərrüfatı məhsulları üzrə liderlər sırasındadır. 44 günlük Vətən müharibəsindən sonra biz işğal olunmuş ərazilərimizi geri qaytardıq və geniş torpaq resurslarına çıxış əldə etdik. Qarabağ çox məhsuldar, qara torpaqla zəngin ərazidir. Amma, təəssüf ki, bu torpaqlar inkişaf etdirilməyib. Müasir texnologiyalar kənd təsərrüfatında çox vacib rol oynayır, çünki məhz bu texnologiyalar məhsul ixracını artırmaqla bu sektordan maksimum qazanc əldə etməyə imkan verir. Bu sahəyə tələbat da kifayət qədər yüksəkdir, çünki həyati əhəmiyyət kəsb edən qida ilə əlaqəlidir. Məhz bunlara görə də kənd təsərrüfatında ixtisaslı mütəxəssislərə, peşə sahiblərinə ehtiyac duyulur ki, bu peşə sahiblərini əmək bazarına hazırlamaq üçün kənd təsərrüfatı texnologiyaları ixtisasının təsnifata əlavə edilməsi mütləq idi.

Müsahibimiz onu da diqqətə çatdırır ki, günümüzdə insanların bir çoxu müxtəlif xəstəliklərdən əziyyət çəkir. Bir çox hallarda insanlar internet resurslarından istifadə edərək yanlış məlumatlar əsasında pəhriz proqramlarından, müxtəlif diyetlərdən istifadə edərək əlavə problemlərlə rastlaşmalı olurlar. Diyetologiya ayrıca elm sahəsi olmaqla insanın düzgün qidalanmasıyla bağlı bütün məsələlərlə, həmçinin müxtəlif xəstəliklərdən əziyyət çəkən və xüsusi qidalanmaya ehtiyacı olan bir qrup insanların qidalanması ilə məşğul olur. "Qidalanma və diyetologiya" adlı ixtisasın təsnifata salınması və kadr hazırlığının aparılması hər iki sahə üzrə problemlərin aradan qaldırılmasına kömək edəcək, eyni zamanda hər iki sahə üzrə mütəxəssislərin bir ixtisas adı altında hazırlanması bu sahədə mühüm nəticələr əldə edilməsinə şərait yaradacaqdır.

İxtisaslar sırasında Proqram təminatı mühəndisliyi də var ki, burada əsas məqsədlərdən biri istehsal prosesini dəstəkləmək, maksimal effektivliyə və keyfiyyətə nail olmaq üçün vasitə, metod və nəzəriyyələrin işlənilməsindən ibarətdir. Proqram təminatı mühəndisliyi proqram təminatının dizaynı, yaradılması, idarə edilməsi ilə maraqlanan sahədir.

Heyvandarlıq ixtisasının təsis edilməsi və təsnifata salınmasında məqsəd kənd təsərrüfatı sektorunun inkişafını təmin etmək, müasir yanaşmalarla heyvandarlıq sahəsində kadr hazırlamaqdır. Bu sahə üzrə təhsil alacaq gələcək mütəxəssislər genetik seleksiya, qida təhlükəsizliyi, heyvan sağlamlığı və məhsuldarlığın artırılmasına köməkliklərini göstərəcəklər.

Müsahibimiz deyir ki, universitetdə iki tədris dilində olmaqla, 80 bakalavr ixtisası üzrə mütəxəssislər hazırlanır. Naxçıvan Dövlət Universitetində Texnologiyalar Parkının tikintisi davam etdirilir ki, yeni açılan ixtisasların böyük əksəriyyəti məhz Texnoparkın fəaliyyət sahəsinə aiddir. O da vurğulanmalıdır ki, universitetlə dünya elektronika nəhəngi IBM arasında əməkdaşlıq müqaviləsi imzalanıb. Bu əməkdaşlıq çərçivəsində universitetdə Proqramlaşdırma Mühəndisliyi İnstitutunun yaradılması nəzərdə tutulub. Universitet olaraq biz ötən tədris ilində Proqramlaşdırma mühəndisliyi ixtisasının təsnifata əlavə edilməsi və bu sahədə kadr hazırlığının aparılmasına icazə verilməsi üçün Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi qarşısında vəsatət qaldırmışdıq. Çox sevindirici haldır ki, Proqramlaşdırma Mühəndisliyi İnstitutunun yaradılması üçün ehtiyacımız olan ixtisas artıq təsnifatda yer almışdır. Eyni zamanda tələbə qəbulu sifarişlərinin hazırlanması zamanı əmək bazarı nümayəndələrinin təklifləri nəzərə alınır. Qida sahəsi ilə bağlı universitetdə hazırlıq aparılması ilə bağlı əmək bazarından təkliflər daxil olub. Həm də Naxçıvan Muxtar Respublikası Qida Təhlükəsizliyi Agentliyi yeni yaranan strukturdur. Qeyd edək ki, Naxçıvan Muxtar Respublikasının ixtisaslı kadrlara olan ehtiyacının əsas hissəsi bizim universitet tərəfindən ödənilir. Ona görə də yaxın gələcəkdə universitetdə adıçəkilən ixtisaslar üzrə tələbə qəbulunun aparılması mümkün olacaq. Yeni ixtisasların açılması həm də Naxçıvan Dövlət Universitetinin bir çox ölkələrin nüfuzlu özəl və dövlət qurumları ilə olan əməkdaşlığına da öz töhfəsini verəcəkdir.

**Bülbül QULİYEVA**

# Naxçıvan doğma yurdumuz, evimiz oldu

***Bir təsadüf nəticəsində "Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyində tanış olduğum gənc müəllim ailəsinin üzvlərindən birinin kəlbəcərli, digərinin goranboylu olması marağımı çəkdi. Goranboy rayonunda ömrümün bir qismini keçirdiyim üçün orada yaşayan kəlbəcərli və goranboylu ailələrlə doğma olmuşdum. Artıq 8 ildir ki, doğma yurda qayıtsam da, vaxtilə yaşadığım yerlərdən olan kimi görsəm, özünü sanki doğmalarımı görmüş kimi hiss edirəm. Tanış oluruq. Öyrənirəm ki, hazırda Ordubad rayonunun Əlahi kəndində məktəb direktoru vəzifəsində çalışan Adim Yusibov əslən Kəlbəcər rayonunun Susuzluq kəndindəndir. Düşmənin Kəlbəcəri işğal etməsi ilə onun da ailəsi məcburi köçkün həyatı yaşayıb. O, 8 yaşından ailəsi ilə bərabər Bərdə rayonunda məskunlaşıb.***




Orta təhsilini bitirdikdən sonra 2005-ci ildə Naxçıvan Muxtar Respublikasında qiyabi ali təhsil almağa başlayıb. Təhsil illərində ailə həyatı quran həmsöhbətimin həyat yoldaşı da müəllim kimi müqəddəs peşə sahibidir. Adim müəllim deyir ki, həqiqi hərbi xidmətini bitirdikdən sonra 2012-ci ildə Ordubad rayonunun Xurs kənd tam orta məktəbində həyat yoldaşı Gülşən xanımla birlikdə pedaqoji fəaliyyətə başlayıb. 2022-ci ilin yanvar ayından etibarən Ordubad rayonunun Əlahi kənd ümumi orta məktəbində direktor vəzifəsində çalışır. O, yenidən ali təhsil müəssisələrinə qəbul imtahanlarında uğur qazanaraq ikinci dəfə təhsil alır. Azərbaycan dili və ədəbiyyat müəllimi olan müsahibimin mətbuatda elmi və publisist məqalələri işıq üzü görüb. O, "Kəlbəcərin söz xəzinəsi", "Bura Naxçıvandır, Nuhçıxandır, Nəqşicahandır" adlı kitabların müəllifidir. Hazırda Adim müəllimin ötən ilin dekabr ayında qəzaya uğrayan təyyarədə qəhrəmanlıq göstərərək həlak olan, Azərbaycanın Milli Qəhrəmanı Hökumə Əliyevaya həsr etdiyi "Səma mələyi" adlı kitabı da çapa hazırlanır. Qeyd edək ki, Hökumə Əliyeva müəllifin dayısı qızıdır.

Ömrünün 10 ilindən çoxunu qədim Naxçıvanda – Ordubadda keçirən gənc ailə başçısı ilə söhbət zamanı onun necə zəhmətkeş bir insan olduğunu da öyrənirik. O bildirir ki, Ordubad rayonunun Nürgüt kəndində mənzil alıb ailəsi ilə birlikdə orada yaşayır və təsərrüfat işləri ilə məşğul olur: "Övladlarımı da zəhmətkeş böyüdürəm. Onlar da görür ki, mən həm məktəbdə öz işimin öhdəsindən gəlir, həm də təsərrüfat işlərini görürəm". 156 arı ailəsi, 12 baş iribuynuzlu heyvan bəslədiyini qeyd edən müsahibim deyir ki, Günəş mən və ailəm üçün tez oyanır və gec batır. Erkəndən oyanıb, işlərimi yekunlaşdırıb məktəbə tələsirəm.

"Üç övladım da direktoru olduğum məktəbdə təhsil alır. Əlahi Ordubadın ən səfalı kəndlərindəndir. İllərdir, burada yaşamağıma səbəb insanların səmimiliyi, Naxçıvanın sakitliyi və canayaxın olmasıdır", – deyir. Adim müəllim qeyd edir ki, Azərbaycanın bir çox dilbər guşələrində işləmək şansı olsa da, getməyi yox, burada qalmağı üstün tutub.

"Naxçıvan bizim evimiz kimidir. İnsanlar o qədər doğmadır ki, qəribçilik hiss etmirik", – deyərək söhbətə qoşulur həmsöhbətimin həyat yoldaşı Gülşən xanım:

"Hər iki rayon da təbiət gözəlidir. Goranboyun da uca dağları, gözəl havası var, Ordubadın da. İlk gəldiyimiz günlərdə gənc və təcrübəsiz idim. Evimizdən, doğmalarımızdan uzaqda, necə deyərlər, "qəribçilikdə" nə cür yaşayacağımızı bilmirdim. Adim Naxçıvan şəhərində təhsil alsa da, Ordubadı azçox tanıyırdı, amma mən elə bələd deyildim. Ancaq onunla bərabər eyni məktəbdə işləyəcəyim üçün rahat idim. Gəlib yer-yurd olandan sonra insanları tanıdıqca bura mənə elə doğmalaşdı ki, indi yaşadığımız Nürgüt kəndini öz kəndim, direktoru olduğum kənd tam orta məktəbinin şagirdlərini isə öz balalarım kimi əziz bilirəm". Onu da qeyd edim ki, Gülşən xanım Fizika-riyaziyyat ixtisasını Gəncə Dövlət Universitetində bitirib. Hazırda Ordubad rayonunun Nürgüt kənd tam orta məktəbinin direktorudur.

Müsahiblərimdən ayrılanda artıq iş vaxtı bitmək üzrə idi, onlar yaşadıqları Ordubad rayonunun Nürgüt kəndinə yola düşür, mən isə təəssüratlarımı yazıya köçürməyə tələsirəm. Və düşünürəm ki, gözəl Vətənimizin belə səmimi, istiqanlı, torpağını və işini sevən, vəzifəsini layiqincə yerinə yetirən insanları yaşadıqca bu Vətənin o başı, bu başı olmayacaq. Bəlkə də, bir gün Kəlbəcərin işğaldan azad edilmiş, abadlaşıb gözəlliyə bürünmüş kəndlərindən birində dərs deyən naxçıvanlı gənc müəllim ailəsindən də müsahibə almaq şərəfinə nail olacağam.

**Ramiyə ƏKBƏROVA**

# "İnsan resursları və kadr potensialının təkmilləşdirilməsi, ƏMAS-dan istifadə qaydaları" mövzusunda dövlət qurumlarına təlim keçirilib





Naxçıvan Təlim Mərkəzinin təşkilatçılığı ilə ilk sessiyası ötən ilin dekabr ayında keçirilən "İnsan resursları və kadr potensialının təkmilləşdirilməsi, ƏMAS-dan istifadə qaydaları" təlimlərinin növbəti sessiyası 27, 28, 30 yanvar tarixlərdə Naxçıvan Muxtar Respublikası Mədəniyyət, Gənclər və İdman, Rəqəmsal İnkişaf və Nəqliyyat nazirlikləri və onların tabeli qurumlarının kadr işləri üzrə əməkdaşlarının iştirakı ilə həyata keçirilib.

Üç gün davam edən təlimin ilk iki günündə iştirakçılar kadr uçotunun aparılması, insan resurslarına müasir yanaşma, kadr potensialının gücləndirilməsi və sair bu kimi biliklərlə tanış olmuş, nümunə sənədlər üzərində praktiki bacarıqlarını inkişaf etdirmişlər.

Təlimin yekununda çıxış edən Naxçıvan Təlim Mərkəzinin İdarə Heyətinin sədri Tağı Tağızadə iştirakçıları təlimi müvəffəqiyyətlə başa vurduğu üçün təbrik edib, təşkil etdikləri təlimlərin onların iş həyatına dəyər qatacağını və peşəkar kadr formalaşmağına təsir edəcəyinə inamını bildirib. Rəhbərlik etdiyi qurumun əsas fəaliyyət istiqamətlərindən birinin muxtar respublika dövlət orqanlarında çalışan işçilərin təlim tələbatları və prioritet istiqamətlərini müəyyən etmək, buna uyğun olaraq təlim proqramları hazırlamaq və peşəkarlıq səviyyəsinin yüksəldilməsi məqsədilə işçiləri təlimə cəlb etmək olduğunu nəzərə çatdırıb. Naxçıvan Təlim Mərkəzinin muxtar respublikanın müvafiq sahədə inkişafı üçün üzərinə düşən vəzifəni tam dərk etdiyini, bu istiqamətdə səylərini davam etdirəcəyini və maksimum fayda yaradacağına əminliyini bildirib.

Sonda iştirakçılara sertifikatlar təqdim edilib.

# Gəncliyimiz, gələcəyimiz

# Uğur hekayələri

Hər bir dövlətin milli inkişaf strategiyasının mühüm istiqamətlərindən birini gənclər siyasəti təşkil edir. Ümummilli Lider Heydər Əliyevin əsasını qoyduğu məqsədyönlü gənclər siyasəti Prezident cənab İlham Əliyev tərəfindən bu gün də uğurla davam etdirilir. Dövlət başçısının müxtəlif illərdə bu istiqamətdə imzaladığı fərman və sərəncamlar ölkəmizdə aparılan gənclər siyasətinə yeni impuls verib. Ümumiyyətlə, ölkə başçısının siyasi iradəsinə uyğun olaraq gənclərə göstərilən dövlət qayğısının əhatə dairəsi kifayət qədər genişdir. Gənclərin yüksəksəviyyəli təhsil almaları, xalqımızın zəngin ənənələri, milli-mənəvi dəyərləri ruhunda yetişmələri, respublikamızın ictimai-siyasi, mədəni həyatına, dövlət idarəçiliyinə cəlb olunmaları, fəal və sağlam həyat tərzi sürmələri, idmanla məşğul olmaları üçün ardıcıllıqla həyata keçirilən məqsədyönlü tədbirlər dövlət gənclər siyasətinin əsas istiqamətlərini təşkil edir. Muxtar respublikamızın hərtərəfli inkişafında gənclərimizin çox böyük rolu vardır. Onlar müxtəlif sahələrdə uğurla fəaliyyət göstərir, ölkəmizin ümumi inkişafına böyük töhfə verirlər. Biz də 2 fevral – Gənclər Günü münasibətilə muxtar respublikanın ictimai siyasi həyatında fərqlənən, müxtəlif sahələrdə çalışan gənclərlə görüşüb həmsöhbət olduq.



Onlardan biri Naxçıvan Dövlət Milli Dram Teatrının aktrisası ***Səkinə Dünyamalıyeva***dır. 9-10 yaşlarında səhnəyə çıxan Səkinə deyir: "Teatra olan marağımı anam və qardaşım aşılayıb. Çünki bir aktyor ailəsində dünyaya göz açmışam. İlk dəfə səhnə həyəcanımı da onlarla yaşamışam. Bir zamanlar xəyalını qurduğum, könüllü iştirak etdiyim teatr səhnəsində artıq 7 ildir ki, rəsmi olaraq fəaliyyət göstərirəm. Müsahibimin sözlərinə görə, teatr sevgisi insanın incəsənətin sehrli dünyasına duyduğu heyranlığı ifadə edir. Teatr həyatı əks etdirən bir güzgüdür. Fikrimcə, hər işin təməli sevgidir. İşini sevirsənsə, daim uğur qazanacaqsan. Mənim üçün ən böyük uğurlardan biri 2024-cü ildə Prezident mükafatına layiq görülməyim olub. Bu mənim üçün qürurverici bir hissdir. Çalışıram ki, təhsilimi inkişaf etdirərək fərdi bacarıqlarımı artırım. Hər bir gənci isə bu gün münasibətilə təbrik edirəm".



Təhsil sahəsində fərqlənən, bakalavr və magistr səviyyəsini fərqlənmə diplomları ilə bitirən ***Dünya Əliyeva*** bildirir: "Hazırda Araz kənd ümumi orta məktəbində ingilis dili müəllimi kimi fəaliyyət göstərirəm. Ötən il müəllimlərin sertifikasiya imtahanında 100 bal toplayaraq maksimum nəticə göstərmişəm. Bu gənclərimizin uğur qazanması üçün motivasiya olmalıdır. Uğur hekayəmin əsas səbəbi orta məktəbdə təhsil alarkən Ulu Öndər Heydər Əliyevə həsr olunmuş guşədə bir sənədin diqqətimi çəkməsi olub. Öyrəndim ki, bu, dahi şəxsiyyətin tam orta təhsili uğurla başa vurmasına dair attestatın surətidir. Bu məndə o qədər gözəl təəssürat yaratdı ki, öz-özümə söz verdim ki, bundan sonra həmişə əla qiymətlər alacağam. Və belə də oldu".



Naxçıvanda bütün sahələrdə olduğu kimi, idman sahəsində də seçilən gənclərimiz az deyil. Bu gənclərdən biri də universal döyüş üzrə dünya çempionatının qızıl medalını qazanan ***Röya Abdullayeva***dır. O, Naxçıvanın ilk qız dünya çempionu və yeniyetmələr arasında kikboksinq üzrə Azərbaycan çempionudur. Röya deyir ki, 2016-cı ildən Naxçıvan şəhərində fəaliyyət göstərən "Turan Fight Club"da məşqlərə başlayıb. Məşqçisi Xəyal Abdullayev həm də onun atasıdır. İdmana həvəs də atasından keçib. Naxçıvanda keçirilən bir çox idman yarışlarında iştirak edən Röya daha sonra ölkə üzrə keçirilən yarışlara qatılıb. Bakı şəhərində 2021-ci ildə keçirilən qrepplinq üzrə yarışda iştirak edib və birinci yerin qalibi olub.

Röya qeyd edir ki, 17 yaşlı qızlar arasında da ilk Avropa çempionu olub. Qazandığı uğurların səbəbini müsahibim belə qiymətləndirir: "Bütün əldə etdiyim uğurlar, təbii ki, yaradılan şəraitin, gərgin məşqlərin, hazırlıqların sayəsində olub. Atam məni hər zaman həvəsləndirib, yarışlarda qalib olmağa inandırıb. İnanıram ki, gələcəkdə də uğurlarım çox olacaq. Mənim bir gənc olaraq əsas məqsədim üçrəngli bayrağımızı bütün dünyada yüksəklərə qaldırmaqdır".



Naxçıvanda seçilən fəal gənclərdən biri də ***Xəlil Əliyev***dir. O öz şəxsi təşəbbüsü ilə Şərur şəhərində kitab kafe açıb.

Müsahibimiz bildirir: "Bu kitab kafeni yaratmaqda əsas məqsədim həyatda yaxşı mənada dost olan kitaba, mütaliəyə gənclərin marağının artırılmasına kömək etməkdir. Kafenin adını seçərkən düşündük ki, buradakı kitablar və xatirələri gələcək nəsillərə iz qoyaq. Necə ki biz də bizdən əvvəlki ziyalıların, görkəmli şəxslərin izi ilə addımlayırıq. Rayon sakinləri və buraya üz tutan qonaqlar rahat şəkildə istənilən janrda kitabları əldə edə bilərlər. Burada 1000-dən çox kitab var. Bu kitab kafenin açılmasında mənim ən böyük dəstəkçim ailəm və ziyalı dostlarım oldu. Rayonumuzda bu layihə bir ilkdir". Gələcək planlarından söz açan Xəlil Əliyev deyir ki, bundan sonrakı məqsədləri bu layihəni muxtar respublikanın digər bölgələrində həyata keçirərək daha çox gəncin mütaliə vərdişini artırmaqdır.



Son olaraq bildirək ki, bu gün muxtar respublikamızda həyata keçirilən gənclər siyasəti özünün mütərəqqiliyi ilə fərqlənir. Dövlət qayğısı ilə əhatə olunan gənclər onlar üçün yaradılan əlverişli şəraitdən maksimum dərəcədə bəhrələnərək fəallıq nümayiş etdirirlər. Biz də 2 fevral – Gənclər Günü münasibətilə onları təbrik edir, fəaliyyətlərində uğurlar arzulayırıq.

**Bülbül QULİYEVA**



## Naxçıvanlı gənclər danışa bilən süni intellekt inteqrasiyalı robot hazırlayıblar

Naxçıvan gəncləri öz istedad və təşəbbüsləri ilə muxtar respublikada bir ilkə imza ataraq süni intellekt inteqrasiyalı danışa bilən robot prototipi hazırlayıblar. Biz də həmin gənclərlə görüşüb bu barədə ətraflı məlumat aldıq. Layihə rəhbəri Şəmil Əhmədov bildirdi ki, yaxın dostu Mirdaməd Seyidov və robot texnologiyaları sahəsinə maraqlı olan 11-ci sinif şagirdi Məhəmmədəli Hacıyev və 10-cu sinif şagirdi Abbas Zeynalovla birlikdə bu robotu ərsəyə gətiriblər. Müəyyən çətinliklərlə rastlaşsalar da, 55 günlük zəhmətləri öz bəhrəsini verib.

Şəmil Əhmədovun sözlərinə görə, "Robogenius" komandası olaraq bu günə qədər bir çox layihələr hazırlayıblar. Və ən sonda süni intellekt inteqrasiya etdikləri robotları – Markusu düzəldiblər. Markus olduqca unikal xüsusiyyətlərə malikdir. Bu robot çənəsini və gözlərini hərəkət etdirir və insanlarla interaktiv ünsiyyət quraraq istənilən suala dərhal cavab verə bilir, həm də Azərbaycanda texnologiya inkişafının yeni bir mərhələsini təmsil edir. Gənclərimiz bu layihələrini bütün ölkəyə tanıdıb istedadlı gənclərdə yüksək motivasiya yaratmağı hədəfləyirlər. Onlar bu sahədə özlərini təkmilləşdirərək layihələrini qlobal arenaya çıxarmağı və texnologiyanın gələcək inkişafına öz töhfələrini verməyi arzulayırlar. Belə bir qənaətdədirlər ki, maddi-texniki bazaları müasir tələblərə cavab verərsə, onlar daha böyük uğurlara imza ata bilərlər.

Müsahibimiz onu da diqqətə çatdırdı ki, Markus layihəsi və bir sıra layihələrimiz təkcə texnologiya sahəsində deyil, həm də cəmiyyətə faydalı olacaq bir çox istiqamətdə böyük dəyişikliklərə yol aça bilər. Bütün layihələrimizi genişləndirmək və təkmilləşdirmək üçün əlimizdən gələni edəcəyik. Biz də gənclərə bu işdə uğurlar arzulayırıq.

**Cavanşir BAĞIRLI**



## Gənclər arasında intellekt yarışı keçirilib



Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin 2 fevral – Gənclər Günü ilə bağlı hazırladığı Tədbirlər Planına uyğun olaraq "Gənclər həftəsi" çərçivəsində intellektual yarışma keçirilib. İlham Əliyev adına Olimpiya İdman Kompleksində təşkil olunan "Nə? Harada? Nə zaman?" intellektual oyununda 7 komanda iştirak edib. Rəqiblərindən üstün oyun nümayiş etdirən "Tornado" komandası yarışın qalibi olub. Komanda üzvlərinə diplom və hədiyyələr təqdim olunub.

# Gəncliyimiz, gələcəyimiz

## O gözdən uzaq olsa da, ehtiyac duyulan yerdədir



***Nigar Mirzəmmədova*** artıq 10 ilə yaxındır ki, Şahbuz rayonunun Ağbulaq kənd tam orta məktəbində dərs deyir. Şəhər mərkəzindən ucqar dağ kəndinə gəlmək üçün hər səhər saat 7-də yola düşür. Yol nə qədər onu yorsa da, məktəbin həyatına qədəm qoyan andan bütün yorğunluğu unudur. Yol uzandıqca söhbətimiz daha xoş, səmimi və maraqlı olur. Gənc müəllim deyir ki, həmişə macəralar axtarışında olmuşam. Fərqlilik, digər mühitdə yaşayan insanların həyat tərzi həmişə diqqətimi çəkib. Özüm Babək rayonunda doğulub boya-başa çatmışam. Biləndə ki, Şahbuz rayonunun Ağbulaq kəndində ingilis dili müəlliminə ehtiyac var, bir müəllim kimi fədakarlığı öhdəmə götürməyi özümə borc bildim. Onun söhbətindən də görünür ki, insanın zəhmətinə dəyər verənlər olduqdan sonra heç bir çətinlik onu yorub-usandırmır.





“Uşaq yaşlarımdan öyrətməyə böyük həvəsim var. Müəllim olmaq mənim uşaqlıq arzum olub. Bura gəldiyim ilk illərdə özümü romanlardakı qəhrəmanlar kimi hiss edirdim”, – deyən gənc müəllim söhbətinə belə davam edir: “Məktəb yaşlarımda bir kitab oxumuşdum. Ucqar dağ kəndinin şaxtasına, boranına, əzab-əziyyətinə baxmayaraq, bir gənc müəllim şagirdlərinə həvəslə, təmkinlə təkcə bilik öyrətmirdi, həm də həyatı sevdirirdi, arzuları reallaşdırmaq, məqsədə çatmağın yollarını göstərirdi. O kitabın qəhrəman müəllimi hər zaman ideal müəllim olmağa səsləyib məni. Elə təhsil aldığım məktəbin, universitetin müəllimlərinin də bu peşəni sevməyimdə əməkləri böyükdür. Şagirdlərimi və onlarla işləməyi sevirəm. Öyrənməyə maraqlı şagirdləri gördükcə bu mənə peşəmi daha çox sevdirir, onların gözlərindəki parıltı mənə stimul verir”.

Yolboyu ona əziz, doğma olan Ağbulaq məktəbində yaşadığı xoş təəssüratları bizimlə bölüşən yazımızın qəhrəmanı ilə elə həmin məktəbə yaxınlaşırıq. Nigar müəllimlə onun sinif rəhbəri olduğu sinif otağına baş çəkirik. Uşaqlar onu gördükdə sanki gözlərinin içi gülür, simalarında xoş təbəssüm yaranır. Deyir ki, uşaqların təhsilə marağı var. Sinifdə oğlanlar çoxluq təşkil etsə də, qızlar oğlanlara nisbətən daha fəal və oxumağa meyillidirlər.

Nigar müəllim deyir ki, məktəb ucqar kənddə yerləşməsinə baxmayaraq, Naxçıvanın müxtəlif rayonlarından burada dərs deyənlər olub və hazırda da var. Bu peşəyə yiyələnən gənc müəllimlərə kiçik bir məsləhəti də var Nigar müəllimin. Deyir ki, əksər müəllimlər öz rahatlığı üçün yaşadığı yerdə işləməyi üstün tutur. Lakin mən gənc müəllimlərə məsləhət görərdim ki, müqəddəs peşəyə başlayarkən belə yerləri seçsinlər. Onlar burada püxtələşəcək və daha yaxşı inkişaf edəcəklər.

Xüsusi bir məqamı da oxucularımızla bölüşmək istərdik. Nigar müəllim Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2019-cu il 31 yanvar tarixli Sərəncamı ilə 2 fevral – Azərbaycan Gəncləri Günü münasibətilə təhsil sahəsində xüsusi fərqləndiyinə görə gənclər üçün Prezident mükafatına layiq görülüb. Prezident mükafatçısı deyir ki, bu mükafat mənim həyatımdakı ən böyük uğur, ən böyük nailiyyətdir. Əməyimə göstərilən bu qayğı və diqqət, verilən bu dəyər məndə daha böyük ruh yüksəkliyi yaratdı, məni daha məhsuldar fəaliyyət göstərməyə sövq etdi. Var gücümlə çalışıram ki, əsl vətənpərvər, dövləti, xalqını, torpağını sevən savadlı, intellektli gəncliyin yetişməsində biliyimi, bacarığımı əsirgəməyəcəm. Bir müəllim kimi öz üzərimə düşən vəzifələri yerinə yetirməklə yanaşı, həm də gələcək nəsil üçün millətini, torpağını, yurdunu, elobasını sevən vətənpərvər şagirdlər yetişdirirəm, bunu özüm üçün mənəvi borc hesab edirəm.

Bu gün təhsil sahəsində səmərəli fəaliyyətinə görə xüsusi fərqlənən Nigar Mirzəmmədova kimi gənclərimiz gələcəyimizin bir daha əmin əllərdə olduğunu göstərir. Özü gənc olsa da, həm də gənc nəslin hərtərəfli böyüməsinə öz töhfəsini verən gənc müəllimə bundan sonra da fəaliyyətində uğurlar arzu edirik.

✍ **Gülcamal TAHİROVA**

## Gənclər yeni texnologiyalara böyük maraq göstərirlər

***İnsan beyni mürəkkəb quruluşa malik olduğu qədər həm də özündə bir çox əhəmiyyətli və əsrarəngiz xüsusiyyətləri cəmləşdirən möcüzəvi orqandır. Məhz bu orqan sayəsində insanlar əsrlərboyu həyat şəraitini daha da mükəmməl etməyin yollarını axtarmış, bir çox maraqlı ixtiralara imza atmışlar. Maraq və xəyal dünyası böyüklərə nisbətən daha da inkişaf edən uşaqlar isə bir sıra çətin məsələlərin həllini tapmağı böyüklərdən yaxşı bacarır. Araşdırmalardan aydın olur ki, xəz qulaqlıqlar, plastilin, meyvəli buz, tramplin, qar arabası və sair uşaqlar tərəfindən ixtira olunanlar sırasındadır.***







Günümüzdə ölkəmizdə kifayət qədər müxtəlif icadlara marağı olan uşaq və gənclərimiz var. Əlbəttə ki, bu günün həvəskar şagirdi, gənci gələcəyin məşhur ixtiraçısı ola bilər. Niyə də olmasın?! İstedad sonradan qazanılmır, insanın özü ilə doğulur. Elə muxtar respublikamızda da belə istedadlı uşaqlar, gənclər var və yetişməkdə davam edir. Belə gənclərimizdən biri də Babək şəhər 2 nömrəli tam orta məktəbin şagirdi ***Nadir Məmmədli***dir. Artıq 4 ildir ki, robotexnika ilə məşğul olan 17 yaşlı gənc deyir ki, balacalıqdan elektronik cihazların necə çalışdığı həmişə onun marağını cəlb edib. Məktəblərimizdə STEAM kabinetləri yarandıqdan sonra özünü təkmilləşdirməyə və üzərində daha çox çalışmağa başlayıb.

Əsasən, pilotsuz uçuş aparatları texnologiyası ilə məşğul olan Nadir bildirir ki, uşaqlıqdan təyyarə modelləri düzəldir: “İlk əl işim labirint həll edən robot olmuşdur. Bununla belə elektronik qurğularla işləyən zaman bir çox problemlərlə üzləşirik. Bunlardan ən əsası isə, təəssüflər olsun ki, ləvazimatların çətin tapılması və ölkəmizdə bu sahənin yeni yaranmasıdır. Bundan başqa, hazırlanma prosesi zamanı elektronik qurğularda müxtəlif xətalar baş verə bilir və bu xətaların həllindən sonra işimizə davam edirik”.

“Dronların hazırlanma prosesində kimlərdənsə yardım alırsınızmı?” sualımızı müsahibim belə cavablandırdı: “Bəli, tək dron yox, digər layihələrimin də hazırlanmasında ən çox köməyimə STEAM Təlim-Tədris Mərkəzinin direktoru Fuad Babayev çatır. Mərkəzdə, təhsil aldığım məktəbdəki digər müəllimlər və hər sahədə mənə dəstək olan ailəmin köməyi də danılmazdır”.

O qeyd edir ki, layihələrində daha çox “beyin” deyilən elektronik qurğulardan istifadə edir. Hansı ki içinə yazılan kodlarla müxtəlif alqoritmləri yerinə yetirir və elektrikli motorlardan istifadə edir. Həmçinin motorların sürətini tənzimləyən qurğular, müxtəlif sensorlar, gövdə üçün müxtəlif materiallar da istifadə etdikləri sırasındadır.

Qeyd edək ki, STEAM Təlim-Tədris Mərkəzi muxtar respublikamızda 2023-cü il iyun ayının 14-də istifadəyə verilib və şagirdlər üçün ən innovativ məkanlardan biridir. Burada 7 adda dərnək fəaliyyət göstərir.

Nadir Məmmədli deyir ki, əslində, bu sahə mühəndislik sahəsidir və hər hansı bir layihəni bitirmək insanın özündən asılı olur. Bəzən aylarla, bəzən illərlə çəkə bilir, bəzən isə bir neçə saata başa gəlir. Bu sahəyə hobbi kimi deyil, iş kimi baxıldıqda isə demək olar, günün çox hissəsi layihələr üzərində işləməklə keçə bilir.

Gənc olmasına baxmayaraq, müsahibim Naxçıvanda keçirilən bütün robotexnika yarışlarında iştirak edib və bununla yanaşı, STEAM Azərbaycan Festivalında (SAF-2023) 2-ci, 2024-cü ildə isə 1-ci yerin qalibi olub. Həmçinin o, Dünya Robot Olimpiadasında iştirak edib.

Gələcək üçün planlarının, ilk növbədə, hazırda üzərində işlədiyi PUA layihələri ilə bağlı olduğunu söyləyən müsahibim bu vasitə ilə ordumuza kömək etmək arzusunu dilə gətirir: “Bildiyiniz kimi, döyüş yerlərində düşmənə sinə gərən və şəhid olan minlərlə gəncimiz var. Mən və komanda yoldaşlarım əsgərlərimizin yerinə döyüşdə tamamilə insansız aparatlardan istifadə olunması üzərində çalışır və ilk prototipimizi 2025-ci ilin yay aylarında təqdim etməyi düşünürük”.

Sonda müsahibim onu da bildirir ki, bu sahədə mənim kimi yüzlərlə gənc işləyir və həmin gənclərin hər biri öz balaca emalatxanalarında bu işlə məşğuldur. Düşünürəm ki, belə gəncləri toplayıb müxtəlif sahələrdə geniş emalatxanalarda müəyyən məqsəd üçün çalışmaları təmin edilsə, çox böyük işlərin öhdəsindən gəlmək olar.

Muxtar respublikamızda uşaq və gənclərin inkişafı üçün geniş imkanlar yaradılıb və yaradılmaqdadır. Yaxın gələcəkdə də ölkəmizdə böyük alimlərin, filosofların, ixtiraçıların yetişib dünyaya səs salacağına inanır və bu yolda gənclərə uğurlar arzu edirik.

✍ **Türkanə ƏSƏDOVA**

# Həsrətin 77-ci ili



## İslam kişi yurduna qayıdacağı günü səbirsizliklə gözləyir

Naxçıvan şəhərində yaşayan İslam Cabbarov Zəngibasar mahalının Dəmirçi kəndindəndir. 98 illik ömrünün 77 ilinə Vətən, yurd həsrəti yazılan müsahibim gördüklərini, yaşadıqlarını ürək ağrısı ilə danışır. Babası Kəlbə Cabbar ağa 1927-ci ildə öldürülüb. Atası Seyid Mirqafar ağa isə 1937-ci ildə mənfur ermənilərin fitnəsinə tuş gəlib. Anasını da erkən itirən, "düşmən xalqın uşaqları" sayılan İslamı bacı və qardaşları ilə birgə dayısı Şərur rayonunun Aralıq kəndinə gətirir ki, təhlükəsizliklərini təmin edə bilsin. Bir müddətdən sonra öz kəndlərinə qayıdan İslam həm oxuyur, həm də işləyib bacı və qardaşlarını saxlayır: "7 yaşımdan işləmişəm. Yaşayış çətin idi. Yıxıla-dura kotan sürürdük. Qafar kişi vardı, o da kotanın macın tuturdu", – deyə İslam kişi uşaqlıq illərinə qayıdır. O vaxt adamlar Yüzbaşiyan adlı bir ermənidən bəhs edərdilər. Danışırdılar ki, 200 atlı ilə Qərbi Azərbaycan kəndlərində qətliamlar törədib. Camaatı aldadıb məscidə yığır, od vurub yandırırmışlar.

Dünyagörmüş ağsaqqal deyir ki, bizim kənddə erməni olmayıb, sonradan məskunlaşıblar: "1942-ci ildə bir erməni ailəsi gəldi bizim kəndə, tövlədə mala baxırdılar. Xaçik idi adı. Bir gün yerli camaatla mübahisəsi oldu. Dedi ki, vaxt gələcək yetim Əlinin evi oğlum Norikin, Nəcəfin evi Zalbekin olacaq. Bunlar təlimatlandırılıb içimizə göndərilən ermənilər idi".

Danışdıqca keçmiş xatirələri çözələnən İslam kişi İrəvanda ikiillik Müəllimlər İnstitutunda təhsil illərini də yada salır: "Həmin dövrdə bütün vəzifələrdə ermənilər idi. Təhsil alıb qayıtdıqdan sonra kolxozda işləyirdim. Rayon Partiya Komitəsinin büro iclası idi. Fikir verdim ki, ermənilərə ayrı, bizə ayrı iclas keçirilir. Buna etirazımı bildirdim".

Ayrı-seçkilik məsələlərinə və haqsızlığa qarşı çıxan İslam kişi həbs edilir. Həbsdən çıxandan sonra ailəsinin təhlükəsizliyi üçün köçüb Naxçıvana gəlir.

Bu o vaxt baş verir ki, artıq azərbaycanlıların Ermənistan SSR-dən köçürülməsi prosesinə, daha dəqiq desək, öz ata-baba yurdlarından deportasiyasına start verilmişdi. Bu, Kür-Araz ovalığında yeni suvarılan torpaq sahələrində pambıq yetişdirmək üçün işçi qüvvəsinə ehtiyac yaranacağı ilə əsaslandırılan, əslində isə köçürmə adı altında azərbaycanlıların tarixi-etnik torpaqlarından deportasiyası idi. 1948-53-cü illər deportasiyası zamanı, ələlxüsus da, İrəvan və ətraf rayonlarda azərbaycanlıların sayı yarıbayarı azaldı. O dövrün hadisələrini xatırlayan İslam kişi eyni həyəcan və qəzəb hisslərini keçirir. Deyir ki, erməniləri gətirib evimizə yerləşdirirdilər. Həyatı yarı bölürdülər. Bu vasitə ilə məcbur edirdilər ki, öz dədə-baba yurd yerlərimizdən çıxaq.

Naxçıvanda məskunlaşdıqdan sonra dövlət idarələrində çalışmağa başlayan İslam kişi 1966-cı ildə İrəvana seminara göndərilir. Bu o dövr idi ki, İrəvanı azərbaycanlılardan təmizləmək istiqamətində işləri sürətləndirmişdilər. Orada gördükləri İslam kişini dərindən sarsıdır: "Məsələlər yenidən alovlanmışdı. Samvel adlı tanış erməni ilə rastlaşdım. Evinə dəvət etdi. Binaya daxil olarkən yan qapıdan səslər eşitdim. Qeyri-ixtiyari qapını döymədən açdım. Bir erməni qadın kiçik qız uşaqlarından tutmuş yaşlı qadınlaradək otağa yığmışdı, onlara türklərin düşmən olduğu fikrini təlqin edirdi. Qəzəb, nifrət, qisas hissləri aşılayırdı. Sonra dərsliklərdə bu düşmənçilik münasibətlərinə yazılı şəkildə rast gəldim. İrəvanın mərkəzinə getdim, eyni mənzərə ilə orada da rastlaşdım. Adamlar bağa toplanmışdı. Səsgücləndirici vasitəsilə oxunan kitaba qulaq kəsilmişdilər. Yenə eyni fikirlər: türklər bizim düşmənimizdir, onlar bizdən milyon yarım qırıb, qisas almalıyıq. Axşamüstüdür, Mərkəzi Komitənin, Nazirlər Sovetinin işçiləri yoldan keçir, heç kim söz demir. Milis nəfərinə yaxınlaşdım. Dedi ki, dövlətin kitabıdır, oxunur. Mənim işim asayişi qorumaqdır".



Sonuncu dəfə İslam kişi doğma yurduna 1988-ci ildə, münaqişənin alovlandığı vaxtda yaxın qohumunun öldürülməsi ilə əlaqədar gedir. Və bu onun oraya son gedişi olur. Azərbaycanlıların öz doğma torpaqlarından növbəti deportasiyası baş verir.

Ali Baş Komandan cənab İlham Əliyevin qətiyyəti və müzəffər Ordumuzun sayəsində 44 günlük Vətən müharibəsində qazanılan zəfər, uğurlu antiterror əməliyyatı Azərbaycanın öz suverenliyinin və ərazi bütövlüyünün tam bərpa olunması ilə nəticələnib. Bütün bunlar, eyni zamanda qərbi azərbaycanlıların da öz əzəli ata-baba yurdlarında yaşamaq hüququnu gündəmə gətirib. Azərbaycan Respublikası Prezidentinin tapşırığı əsasında hazırlanan Qayıdış Konsepsiyası qərbi azərbaycanlılarda böyük ümid doğurub. Ömrünün ahıl çağında hələ də mütaliə etməkdən doymayan, xatirələrini həm nəqli, həm poetikləşdirərək vərəqlərə köçürən İslam kişi əmindir ki, Qarabağa, Şərqi Zəngəzura qayıdan soydaşlarımız kimi o da gün gələcək ata yurduna – Zəngibasarın Dəmirçi kəndinə qayıdacaqdır.

Biz də bu müqəddəs arzunun çin olması diləyilə İslam kişi ilə sağollaşdıq, əminliyimizi bildirdik ki, müzəffər ölkə başçımızın, qüdrətli dövlətimizin yeritdiyi siyasət haqqın, ədalətin öz yerini tutmasında bizə işıq yandıracaq. O gün uzaqda deyil.

✍ **Ruhiyyə RƏSULOVA**

# Babək qeyrətli igidlər



Yaxın günlərin birində Babək rayonunun qəhrəmanlarından olan Anar Əşrəf oğlu Mahmudovun böyüyüb boya-başa çatdığı evə üz tutduq.

Bizi şəhidimizin atası və qardaşı qarşıladı. Gəlişimizin səbəbini bildirdik. Qardaşı Mahmud sevə-sevə, qürurla danışdı Anarın həyatı barədə: "Anar 9 may 1980-ci ildə indiki Babək şəhərində anadan olmuşdu. İlk təhsilini də indiki Babək şəhərindəki 1 nömrəli tam orta məktəbdə almışdı. Orta məktəbi bitirdikdən sonra həqiqi hərbi xidmətə yollandı. Həqiqi hərbi xidməti bitirdikdən sonra Bakı şəhərində altıaylıq gizir kursuna daxil olub orada təhsil aldı və xidmətə başladı. Qardaşımın xidməti Lənkəranda, Ağdamda, Sarıcalıda, Ağcabədidə keçib. Anarın toyunu Lənkəranda etdik. Bu gün onun iki qızı var: Turanə və Tünzalə. Övladlarından birinə xalamızın, digərinə isə anamızın adını verib".

Mahmud deyir ki, 2005-ci il oktyabrın 3-də Ağcabədi rayonunun Minaxorlu kəndi yaxınlığında xidməti vəzifəsini yerinə yetirərkən başından aldığı düşmən gülləsindən yaralanıb. Həmin gün Minaxorlu kəndində döyüş gedirmiş. Oktyabrın 11-də şəhid olub. 2006-cı il aprelin 14-də Anara şəhid statusu verilib. Nəşi Babək şəhərində torpağa tapşırılıb. Balaca qızını görmədi Anar. O, şəhid olduqdan sonra 2005-ci il noyabrın 27-də dünyaya gəlib Tünzalə. Qardaşım yaşca məndən balaca olsa da, mənə yol göstərirdi. Çox qeyrətli, mehriban idi. Kəndin xeyir-şərindən qalmazdı. Kənddə xüsusi hörməti var idi. Heç kin-küdurət saxlamazdı. Hərbidən məzuniyyətə gələn kimi imkanı daxilində hər kəsə baş çəkərdi.



Mahmud qeyd edir ki, hərbçi olmaq onların hər birinin qanında var. Mahmud da, oğlu da bu sahəni seçiblər. Mahmud Azərbaycan Respublikasının müharibə veteranıdır. Oğlu Əşrəf baş leytenantdır. 44 günlük Vətən müharibəsində iştirak edərək əmisinin qisasını alıb.

Düşmənin həmlələri qarşısında namusunu, torpağını, dinini, azadlığını qorumaq arzulu əsgərlərimiz döyüşlərdə olub, qəhrəmanlıqlar göstəriblər. Şəhidliyə yüksəliblər. Bu gün onlar özlərini uğrunda fəda etdikləri torpaqda uyuyurlar. Qürur mənbəyimizə çevrilən şəhidlərimizlə bütün Azərbaycan xalqı fəxr edir. Hər bir ölkə vətəndaşı "Bu Vətən bizimdir", – deyib canını Azərbaycanımızın ərazi bütövlüyü naminə qurban verən igid və mərd oğullarını yaxından tanımalı, onların əziz xatirələrini həmişə uca tutmalıdır.

✍ **Turan MƏMMƏDLİ**

# Daha bir payız da gəldi ömrümə

## Muxtar Məmmədoğlunun yeni kitabı haqqında düşüncələr...




Mətbuatda öz imzasını, sözünü təsdiq edən jurnalistlərdən və onların yaradıcılıq yolundan yazmaq üçün nə zaman əlimə qələm alsam, sözün ağırlığını, sanbalını duymuşam. Uzun illər "Şərq qapısı" qəzetində bir yerdə çalışdığım, yazılarının ilk oxucusu olduğum qələm yoldaşımız, Naxçıvan mətbuatında redakta məktəbinin tanınmış nümayəndəsi, Naxçıvan Muxtar Respublikasının Əməkdar jurnalisti Muxtar Məmmədoğlu da belə qələm sahiblərindən biridir. Ömrünün bir hissəsini pedaqoji fəaliyyətə, sonra isə sözə, qələmə həsr edən Muxtar müəllim 20 ildən artıqdır ki, mətbuatımızda yorulmadan səmərəli fəaliyyət göstərir. Bu gün muxtar respublikamızda və ölkə səviyyəsində imzası tanınan bir çox qələm sahiblərinin, jurnalistlərin böyük bir hissəsi Muxtar müəllimin "şinelindən" çıxıb, daha dəqiq desək, onun redaktə məktəbindən keçib.

Ötən ilin dekabrında Muxtar müəllimin 65 illik yubileyi qeyd olunub. Haqqında "Naxçıvan Muxtar Respublikası Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyəti tərəfindən "Hədər yaşanmayan illər" adlı maraqlı və məzmunlu film də çəkilib. Bu ərəfədə Əməkdar jurnalistin daha bir kitabı – "Daha bir payız da gəldi ömrümə" işıq üzü görüb.

Muxtariyyətin 100 illiyinə həsr edilmiş "Daha bir payız da gəldi ömrümə" Muxtar müəllimin sayca altıncı kitabıdır. "Şam ömrünün nağılı", "Mənim Naxçıvan dünyam", "Azadlığı istəmədik zərrə-zərrə", "İllər, sizdə nəyim qaldı", "O yaşayır, yaşayacaq ürəklərdə" kitabları Muxtar müəllimin illərlə qəzet səhifələrində işıq üzü görən məqalələrindən, oçerklərindən, o cümlədən müsahibə və resenziyalarından ibarətdir. Adlarını qeyd etdiyimiz kitabların sırasına daxil olan "Daha bir payız da gəldi ömrümə" kitabı da Əməkdar jurnalistin ötən dövrlərdə qələmə aldığı yaradıcılıq işlərinin toplusudur. "Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyində nəfis tərtibatla çap olunan kitab, ümumilikdə, 5 bölmədən ibarətdir. "Şərq qapısı" qəzetinin baş redaktoru Sara Əzimovanın "Ön söz və ya bu başqa bir payızdır" təbriki ilə oxucuların görüşünə gələn kitabın "Ucalıq fenomeni" adlı ilk fəsli, bütövlükdə, Azərbaycan dövlətinin qurucusu və memarı Heydər Əliyev haqqında qələmə alınmış məqalələrdən, esselərdən və maraqlı müsahibələrdən ibarətdir.

"Ucalıq fenomeni" adlı fəsildə yer alan digər məqalələrin hər biri xilaskar lider haqqında qələmə alınmış maraqlı materiallardan ibarətdir. Ön sözdə S. Əzimovanın dediyi kimi, hər bir yazıdan oxucuya aydın olur ki, Ulu Öndər Heydər Əliyev siyasi fəaliyyətinin bütün dövrlərində Azərbaycan xalqının taleyini, ölkənin gələcək məsuliyyətini öz çiyinlərində daşımış, onu bir dövlət və xalqımızı bir millət kimi tarixin ağır və sərt sınaqlarından çıxarmış, müstəqil müasir Azərbaycanın bugünkü həqiqətlərinin, işıqlı sabahının etibarlı bünövrəsini yaratmışdır...

Kitabın "Gələcəyə ünvanlanmış ideyalar yaşayır" adlı ikinci fəslində Ümummilli Lider Heydər Əliyev yolunun layiqli davamçısı, ölkə başçısı cənab İlham Əliyevin apardığı dövlətçilik xəttindən, böyük amallara hesablanmış Azərbaycançılıq ideologiyasının bugünkü inkişafından geniş bəhs olunur. Bununla yanaşı, müəllif bu fəsildə ərazi bütövlüyümüzün təminatına çevrilən Xankəndi zəfərindən və onun tarixi mahiyyətindən geniş bəhs edir.

Bir-birindən maraqlı, oxunaqlı yazılardan ibarət olan "Daha bir payız da gəldi ömrümə"nin növbəti fəsli "Kitablar" adlanır. Bu fəsil Əməkdar jurnalistin müxtəlif dövrlərdə işıq üzü görən kitablar haqqında yazdığı resenziyalardan və təhlillərdən ibarətdir. Mütaliəni sevdiyi qədər kitablar haqqında fikir söyləməyi də sevən həmkarım adıçəkilən fəsildə "Ədəbiyyatımızda bu günün aparıcı mövzusu: siyasi lirika", "Muxtariyyətin 100 illik yubileyinə yeni töhfə", "Yüz ilimin sədası" işıq üzü gördü", "Əliyevşünaslıq elmi zənginləşdirilir: "100 ilin imzası", "Mollanəsrəddinşünaslığa qiymətli töhfə" adlı yazıların hər birində sərlövhədə adları çəkilən kitablar barədə geniş məlumat verir.

Kitabın "Oçerklər" və "Düşüncələr" fəsillərində işıq üzü görən yazılar da öz dəyəri ilə diqqət çəkir. Çünki bu məqalələrin bir qismində insan həyatı, insan ömrü əks olunduğu halda, digər bir qismində, daha dəqiq desək, "Düşüncələr" fəslində Muxtar müəllimin bədii fikirləri, daxili dünyası, onun illərin peşəkar jurnalisti kimi hadisələrə dəqiq və həssas yanaşması ilk baxışdan hiss olunur.

Ömrünün 65-ci payızını yaşayan əziz həmkarımız, dəyərli söz adamı, Naxçıvan Muxtar Respublikasının Əməkdar jurnalisti, qəzetimizin ağsaçlı, xeyirxah, yardımsevər, daxili aləmi zənginliklərlə dolu qələm adamı Muxtar müəllimi yeni kitabının işıq üzü görməsi münasibətilə təbrik edir, ona daha böyük yaradıcılıq uğurları arzu edirəm. Qələmin iti, sözün daim kəsərli olsun, Muxtar müəllim!

**Məcid RƏŞADƏTOĞLU**

# Ömrü az, qabağı yaz Kiçik çillə



**_Xalq təsəvvüründə qış ölən təbiət obrazı kimi yaşayır. Qışın gəlişi Böyük çillə ilə başlayır. Bu zaman soyuq, şaxtalı günlər çox olmur. Əsas soyuq hava "Kiçik çillə" adı ilə tanınan zaman kəsimində müşahidə edilir. Böyük çillədən sonrakı dönəm xalq arasında "Kiçik çillə" adlanır və 20 gün davam edir. Fevral ayının ilk günündən Kiçik çillənin birinci ongünlüyündə xalq arasında Xıdır Nəbi mərasimi icra olunur. Naxçıvan ərazilərində və qərbi azərbaycanlılar arasında Xıdır Nəbi mərasiminin bu ongünlüyün müxtəlif zamanlarında icrası müşahidə edilir. Qərbi Azərbaycanın Dərələyəz mahalının Gomur, Gabud və Axta kəndlərində bu mərasim fevral ayının 3-ü, 4-ü və 5-i qeyd olunurdu. Mərasim faktlarının da digər folklor faktları kimi variantlılığını nəzərə alsaq, Xıdır Nəbi mərasiminin də coğrafi və iqlim şərtləri baxımından fərqli günlərdə qeyd edilməsi təbiidir. Bu baxımdan təkcə Azərbaycanın bir çox regionlarında deyil, Xıdırın qeyd olunduğu digər türk xalqlarında elədir._**

Xıdırın hər evə gəlməsini arzu edən xalq müxtəlif ayinlər icra edir. Xalq həm də belə deyir ki, Xıdırın ən çox sevdiyi buğda cücərtisindən hazırlanan qovutdur. Bunun üçün qovutu kiçik qablarda evin dörd küncünə qoyarlar. İnanırlar ki, Xıdır gəlib qovutun üzərinə barmaq basacaq, bununla da o evdə bar-bərəkət artacaqdır. Türk xalqlarında, o cümlədən Azərbaycan türklərindəki etiqada görə, Xıdır bolluq, yaşıllıq, ölümsüzlük, yenilik, sevinc daşıyan hami ruhdur. Ona hörmət, ehtiram göstərilərsə, o da həmin yerə hörmətlə yanaşar, o evə bolluq arzulayar. Əgər evdə var-dövlət, bar-bərəkət çoxalarsa, el arasında "Bu evə Xıdır gəlibdir, bu nemətə Xıdır əli dəyibdir", – deyərlər.

Qışın ikinci mərhələsi sayılan Kiçik çillə dönəmində hava, adətən, Böyük çillə ilə müqayisədə çox soyuq keçir. Elə xalq da deyir: "Əsas şaxta Böyük çillədən sonra olur, yəni Kiçik çillədə. Bu Kiçik çillə çox sərt olur. Hava o qədər soyuq, şaxtalı keçir ki, meşədə heyvanlar, çöldə quşlar üşüyür, donur. 20 günlük Kiçik çillə nə qədər sərt olsa da, ömrü qısadır. Bu vaxt həm də günlər uzanır".

Xalq yaddaşında iki qardaş və ya iki bacı kimi obrazlaşdırılan Böyük çillə və Kiçik çillə bir-birinə qarşı qoyulur. Böyük çillə nə qədər yumşaq təbiətli olaraq obrazlaşdırılırsa, Kiçik çillə onun əksinə olaraq öz təbiəti etibarilə sərt, ərköyün obraz kimi xarakterizə edilir. Bu baxımdan professor A.Nəbiyevin fikirləri böyük önəm daşıyır: "...Maraqlı cəhətlərdən biri də odur ki, mərasim düşüncəsində insan özünün şərə, pisliyə münasibətinin müəyyən cəhətlərini Kiçik çillə ilə bağlı poetik düşüncəsində ifadə edir:

*Kiçik çillə..*
*Boyu bir belə...*
*Hikkəsi bir belə..*
*Gəlişi oldu*
*Hayınan.*
*Gedişi oldu*
*Vayınan.*
*Əlində qırmanc,*
*Eli-günü yandırdı,*
*Neçə günahsız doqqaz bağladı,*
*Neçə alaqapı*
*Sındırdı.*
*Kəsdi neçə evin yağmasın,*
*Pendirin, çörəyin, ağmasın...*"

Xalq təsəvvüründə çillədən çıxmaq ağırlıqdan, məşəqqətdən qurtulmağa bərabərdir. "Çillə" sözünü bir çox tədqiqatçılar müxtəlif şəkildə izah edirlər. Folklorşünas C.Bəydili çillə ilə bağlı yazır ki,"çillə" sözü məhrumiyyət, sıxıntı, əziyyət çəkmə mənalarını verir". Bu məqam bir bayatıda öz əksini tapır:

*Əllərin saza bənzər,*
*Boyun gülnaza bənzər.*
*Bir kərə səni görsəm,*
*Çilləm də yaza bənzər.*

Kiçik çillədən sonrakı dönəmin – Boz ayın gətirəcəyi soyuqlu-isti-li günlər insanların qəlbində yeni həyata ümid yaradır. Odur ki, "Ömrü az, qabağı yaz" olan Kiçik çillə insanları öz soyuqluğu və şıltaqlığı ilə qorxuda bilmir.

Qərbi Azərbaycan əhalisinin də Kiçik çillə dönəminin soyuğundan qorunmaq məqsədilə hazırladığı bədənə istilik bəxş edən müxtəlif mətbəx örnəkləri vardır. Yaydan tədarükü görülən şıppır, ələyəz bitkilərindən hazırlanan aşlar, xəşil kimi yemək növləri Kiçik çillə dönəminin soyuğunun fəsadından qorunmaq üçün ən yaxşı üsullardandır. Eləcə də xalq yaddaşında bu dönəm "qarların təndirdən girib küflədən çıxdığı" vaxt kimi folklor dili ilə xarakterizə olunur.

Güney Azərbaycan folklorunda da Kiçik çillənin ərköyünlüyü, təbiət etibarilə ziyanxor olmağı poetikləşir:

Kiçik çillə:
*Şaxtamı kəndə salaram,*
*Ağacları çatladaram.*
*Hər yanı buz bağladaram,*
*Tamam xəlqi ağladaram.*

Böyük çillə:
*Qabağın yazdır sənin,*
*Ömrün azdır sənin.*
*Hərbə-zorba demə çün,*
*Fikrin dayazdır sənin.*

Kiçik çillənin, xalqımız demişkən, qışın oğlan çağının insanlara, onların təsərrüfat və məişətinə vura biləcək ziyanının qarşısını almaq üçün keçmiş dönəmlərdə icra olunan bir çox ayin və rituallar olub ki, onların çox az qismi müasir günümüzədək gəlib çıxıb. İstər qədimlərdə icra olunan, bu gün isə yalnız kiçik poetik örnəklərdə izləri yaşayan ayin və rituallar, istərsə də günümüzdə də icrası müşahidə olunan mərasim örnəkləri xalqımızın qədim mifoloji dünyagörüşündən xəbər verir.

**Aytən CƏFƏROVA**
***filologiya üzrə fəlsəfə doktoru, dosent***

## Voleybol üzrə zona birinciliyi keçirilir



İlham Əliyev adına Olimpiya İdman Kompleksində oğlan və qız voleybolçuların U-18, U-16, U-14 və U-12 yaş kateqoriyaları üzrə muxtar respublika zona birinciliyi keçirilir. Naxçıvan Muxtar Respublikası Gənclər və İdman, Təhsil nazirlikləri və Naxçıvan Voleybol Federasiyasının birgə təşkil etdikləri yarışda şəhər və rayon komandaları olmaqla, ümumilikdə, 32 kollektiv mübarizə aparır. Olimpiya sistemi əsasında qaliblərin müəyyənləşəcəyi birinciliyin ilk mərhələsinə sentyabrın 27-si start verilib. Yanvarın 31-də ilkin mərhələ yekunlaşıb. Final görüşləri isə fevral ayı ərzində təşkil olunacaq.

Qeyd edək ki, aşağı yaş kateqoriyalarında voleybol yarışları Naxçıvanda ilk dəfədir, keçirilir. Yarışın keçirilməsində əsas məqsəd 2025-ci il ərzində aşağı yaş kateqoriyaları üzrə yeniyetmə oğlan və qız voleybolçular arasında keçiriləcək Azərbaycan çempionatlarında Naxçıvanı təmsil edəcək komandaların tərkibini müəyyənləşdirmək, yeniyetmə voleybolçuların oyun bacarıqlarını artırmaqdan ibarətdir.

## "Herostratı unudun" tamaşasının premyerası keçirilib



Naxçıvan Dövlət Milli Dram Teatrında Qriqori Qorinin məşhur "Herostratı unudun" əsərinin eyniadlı tamaşasının premyerası olub. Tamaşanın baş rejissoru Mir Qabil Əkbərovdur.

Tamaşa qədim Efes şəhərində baş verən hadisələri əks etdirərək insanın şöhrətpərəstlik, hakimiyyət ehtirası və mənəvi dəyərlər arasında qalmasını bədii şəkildə təqdim edir. Qorinin əsəri keçmiş dövrlərə aid olsa da, öz müasirliyini itirməyib və insan cəmiyyətindəki əbədi problemləri qabardır.

Premyerada teatrın tanınmış aktyor heyəti iştirak edib, tamaşa izləyicilər tərəfindən maraqla qarşılanıb. Tamaşanın səhnə tərtibatı və musiqi müşayiəti də diqqət çəkib və tamaşaçılar tərəfindən yüksək qiymətləndirilib.

Naxçıvan Dövlət Milli Dram Teatrının kollektivi bu premyera ilə bir daha sübut etdi ki, onlar yüksəksəviyyəli əsərləri səhnəyə uğurla gətirə bilirlər.

Premyeradan sonra teatrsevərlər rejissora və aktyor heyətinə minnətdarlıq ifadə ediblər.

### İtmişdir

Naxçıvan şəhəri, 6-cı küçə 73 ünvanda yaşamış Seyidov Mirheydər Mirəli oğlunun adına olan 3577 inventar nömrəli texniki pasport itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Xanlıqlar kənd sakini Əliyev Ehtibar Yaqub oğlunun adına verilmiş JN-155 nömrəli torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyindən etibarsız sayılır.

***

Sadiqov Tural Səfər oğlunun adına Ukrayna Mülki Müdafiə Universitetin 2009-cu ildə bitirməsi haqqında verilən diplomun qiymət cədvəli itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Məmmədsabir kənd sakini Abdullayev Elçin Abdulla oğlunun adına olan JN-252A nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Aşağı Daşarx kənd sakini Hüseynov Rasim Qafar oğlunun adına olan JN-43A nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Naxçıvan şəhəri, Heydər Əliyev prospektində yerləşən Rabitəbank ASC-yə məxsus 16 dekabr 1993-cü il tarixli texniki pasport itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Zeyvə kənd sakini Məmmədov Əli İmran oğlunun adına olan B kateqoriyalı sürücülük vəsiqəsi itdiyindən etibarsız sayılır.

ŞƏRQ QAPISI
Baş redaktor müavini: MƏMMƏD BABAYEV
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: info@serqqapisi.gov.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Vöen: 0200065441
Çapa imzalanmışdır 00:00
Tiraj: 1000. Sifariş № 31
Nömrəyə məsul: Gülcamal Tahirova, Nail Əsgərov, Araz Quliyev
Dizayner: Tacirə Vəliyeva
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.